QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 009 (5240) 18 **yanvar** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Prezident İlham Əliyev İsveçrədə bir sıra işgüzar görüşlər keçirib



Səh 2

5

**Baş nazirin müavini Yevlaxda icbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlərlə maraqlanıb**



9

**15 nəfərin ölümünə səbəb olanlar bəraətə can atırlar**



6

**Akademik Ramiz Mehdiyevin "Yeni dünya nizamı və milli ideya" kitabının təqdimatı olub**



# Azərbaycan dünya birliyində etibarlı tərəfdaşa çevrilib

## *Prezident İlham Əliyev İsveçrədə bir sıra işgüzar görüşlər keçirib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 17-də Davosda Norveç Krallığının xarici işlər naziri Borge Brende ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Norveç arasında əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi. Norveçin bir sıra şirkətləri, xüsusilə Statoil şirkəti ilə Azərbaycan arasında yaxşı əməkdaşlığın həyata keçirildiyi bildirildi. Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### Prezident İlham Əliyev Davosda “Suez Group” şirkətinin baş icraçı direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda “Suez Group” şirkətinin baş icraçı direktoru Jan Lui Şasod ilə görüşüb. Görüşdə Azərbaycan ilə Fransa arasında münasibətlərin yüksək səviyyədə olduğu qeyd edildi. Fransa şirkətlərinin Azərbaycanda böyük layihələr həyata keçirdiyi, “Suez Group” şirkətinin də bu layihələrdə yaxından iştirak etdiyi və bir çox layihələrin uğurla icra olunduğu vurğulandı. Söhbət zamanı “Suez Group” şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.





### Prezident İlham Əliyev Davosda “Procter and Gamble Europe” şirkətinin prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda “Procter and Gamble Europe” şirkətinin prezidenti Geri Edrü Kumbe ilə görüşüb. Görüşdə son vaxtlar Azərbaycanda gedən inkişaf proseslərinin ölkəmizə sərmayə cəlb olunmasına və turist axınına geniş imkanlar yaratdığı bildirildi. “Procter and Gamble Europe” şirkətinin Azərbaycan ilə yaxşı əlaqələri olduğu vurğulandı və bu şirkətin ölkəmizlə əməkdaşlığın genişləndirilməsi baxımından bir sıra layihələrinin nəzərdə tutulduğu qeyd edildi.

### Prezident İlham Əliyevin Davosda Norveçin xarici işlər naziri ilə görüşü olub



### Prezident İlham Əliyevin və İsveçrə Prezidenti Doris Löythardın görüşü olub

Yanvarın 17-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti xanım Doris Löythardın görüşü olub. İsveçrə Prezidenti Doris Löythard Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25 illiyi münasibətilə təbriklərini çatdırdı, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələr üzrə uğurla inkişaf etdiyini bildirdi. Azərbaycan ilə İsveçrə arasında əməkdaşlığın yeni sahələri əhatə etdiyini deyən xanım Doris Löythard maliyyə sektorunda artıq uğurlu əlaqələrin qurulduğunu vurğuladı, ölkələrimizin enerji sahəsində də səmərəli əməkdaşlıq etdiyini bildirdi.

*Ardı Səh-3*

# Azərbaycan dünya birliyində etibarlı tərəfdaşa çevrilib

## *Prezident İlham Əliyev İsveçrədə bir sıra işgüzar görüşlər keçirib*









*Əvvəli Səh- 2*

Xanım Doris Löythardın ölkəmizə səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev Azərbaycan ilə İsveçrə arasında uğurlu tərəfdaşlıq əlaqələrinin olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən islahatlardan, dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinin təsirlərinin aradan qaldırılması və iqtisadiyyatın inkişaf etdirilməsi, həmçinin iqtisadiyyatın və ixracatın şaxələndirilməsi ilə bağlı ölkəmizdə görülən işlərdən danışdı. Prezident İlham Əliyev ölkəmizin böyük tranzit imkanlarının olduğunu, Azərbaycanın mühüm nəqliyyat tranzit mərkəzinə çevrildiyini bildirdi. Görüşdə ölkələrimiz arasında dəmir yolu sahəsində yaxşı əməkdaşlığın olduğu vurğulandı, TAP və TANAP layihələri, investisiya, maliyyə-kredit, kənd təsərrüfatı, əczaçılıq və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

### Prezident İlham Əliyevin BP şirkətinin baş icraçı direktoru ilə görüşü olub

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Böyük Britaniyanın BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşü olub.

Görüşdə BP şirkətinin baş icraçı direktoru Robert Dadlinin Azərbaycana son səfəri məmnunluqla xatırlandı. BP ilə SOCAR arasında əməkdaşlığın uğurla inkişaf etdiyi, BP-nin Azərbaycanda ən böyük investor olduğu qeyd edildi, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda gedən işlər müzakirə olundu. Söhbət zamanı "Cənub Qaz Dəhlizi", TAP, TANAP layihələrinin uğurlu icrası və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### Prezident İlham Əliyev Lüksemburqun Baş naziri, dövlət naziri Ksavyer Bettel ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Lüksemburqun Baş naziri, dövlət naziri Ksavyer Bettel ilə görüşüb. Lüksemburqun Baş naziri, dövlət naziri Ksavyer Bettel ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə, o cümlədən maliyyə və investisiya sahələrində əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bildirdi. Lüksemburq ilə Azərbaycan arasında hava nəqliyyatı ilə yük daşımaları sahəsində uğurlu əməkdaşlığın olduğunu deyən Ksavyer Bettel ölkəsində İKT, kosmik sənaye, bank və maliyyə sahələrinin inkişaf etdiyini, bu sahələrdə Azərbaycanla əməkdaşlığa hazır olduqlarını dedi.

Prezident İlham Əliyev Azərbaycanın müxtəlif sahələrdə Lüksemburqla əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda da İKT-nin inkişafına xüsusi diqqət ayrıldığını, hökumətin bu sahəyə böyük investisiyalar yatırdığını bildirdi. Azərbaycanda kosmik sənayenin də inkişaf etdiyini deyən Prezident İlham Əliyev ölkəmizin bu sahələrdə Lüksemburqla əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. Söhbət zamanı qarşılıqlı investisiya, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 17-də Davosda Birləşmiş Ərəb Əmirliklərinin "VPS Healthcare" şirkətinin icraçı direktoru Şamşir Vayalil ilə görüşü olub. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda "LafargeHolcim" şirkətlər qrupunun rəhbəri Erik Olsen ilə görüşüb.

# 2017-ci il "Cənub Qaz Dəhlizi"nin yaradılması üçün həlledici il olacaq

*Prezident İlham Əliyev: "Əgər kimsə düşünürsə ki, biz indi çətin, çıxılmaz vəziyyətdəyik və bizim qarşımızda hansısa əsassız tələb qoyula bilər, tamamilə yanlış yanaşmadır"*









***Bu gün enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Enerjini siyasətdən, iqtisadiyyatdan ayırmaq qətiyyən mümkün deyil. Bu problem, xüsusilə də, son illər ərzində, əsasən, Avropa qitəsində yerləşən ölkələr üçün aktuallıq kəsb etməyə başlayıb. Çünki müəyyən dövlətlər Avropa ölkələrinə ambisiyalarını diktə etmək üçün təbii qazdan siyasi alət kimi istifadə etməkdədirlər. Lakin hər zaman normal əməkdaşlıq və tərəfdaşlıq təklif edən Azərbaycan enerji təhlükəsizliyi məsələsinə iqtisadi prizmadan yanaşıb.***

Dünyada fəaliyyətinə görə etibarlı tərəfdaş imici qazanmış Azərbaycan 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən sonra enerji təhlükəsizliyi məsələsinə xüsusi töhfələr verib. BTC neft, BTƏ qaz kəmərlərinin istifadəyə verilməsindən sonra TANAP və TAP kimi layihələrin də təşəbbüskarı kimi çıxış etdi. Bu layihələr üzrə yaradılmış "Cənub Qaz Dəhlizi" isə artıq reallığa çevrilməkdədir. Çünki adıçəkilən layihələrin əsas resurs mənbəyi "Şahdəniz" və "Abşeron" qaz yataqlarıdır. Ancaq Azərbaycanın qaz ehtiyatları daha böyükdür. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,5 trilyon kubmetrə bərabərdir. Ehtimal olunan, proqnozlaşdırılan ehtiyatlarımız 4-5 trilyon kubmetr səviyyəsindədir. Yeni Xəzər qazı Avropa üçün yeganə yeni mənbədir. Məhz bu mənada, "Cənub Qaz Dəhlizi" bir daha Azərbaycanın bölgədə ən qətiyyətli bir aktor kimi yeni transkommunikasiya dəhlizlərinin yaradılmasında vacib ölkəyə çevrilməsini isbatlayır.

Bütün sadalanan məsələləri əsas götürərək, deyə bilərik ki, 2017-ci il "Cənub Qaz Dəhlizi"nin yaradılması üçün həlledici il olacaq. Bu barədə Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı danışıb. Dövlətimizin başçısı bildirib ki, bu il biz "Cənub Qaz Dəhlizi"nin yaradılması ilə bağlı çox böyük işlər görəcəyik: "Bu il həlledici il olacaq. Bu nəhəng layihəni maliyyələşdirmək üçün bizim kifayət qədər öz vəsaitimiz var. Beynəlxalq maliyyə qurumları da bu layihəyə vəsait ayırırlar. Ona görə yox ki, bizə belə xüsusi xoş münasibət bəsləyirlər. Ona görə ki, bu, səmərəli layihədir. İndi beynəlxalq maliyyə qurumları elə layihələri axtarırlar ki, o layihələr pul gətirsin. Bax, "Cənub Qaz Dəhlizi" o layihələrdəndir. Bu layihə həm iqtisadi cəhətdən çox səmərəlidir, həm də ki, enerji təhlükəsizliyi baxımından bir çox ölkələrin maraqlarını təmin edəcək, ilk növbədə, Azərbaycanın".

Əlbəttə ki, ortada güclü siyasi iradənin və maliyyənin olmasını nəzərə alsaq, əminliklə demək olar ki, heç bir qüvvə "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsinə mane ola bilməyəcək. Prezident İlham Əliyev xüsusi olaraq, qeyd edib ki, heç bir qüvvə Azərbaycan qarşısında tələb qoya bilməz: "İlk növbədə, heç bir kənar qüvvə bizi istəmədiyimiz layihəyə cəlb edə bilməz, bu, birincisi. Bizim üçün əsas dövlətimizin, xalqımızın maraqlarıdır. İkincisi, heç kim bizə heç nəyi diktə edə bilməz. Bunu yaxın tarix artıq göstərib, bütün bu səylər əbəsdir. Bizi bu vəziyyətlə şantaj etmək istəyənlər, sadəcə olaraq, özlərinə hörmət etmirlər və onlara olan-qalan, azalan inamı da tamamilə aradan götürürlər. Biz "Cənub Qaz Dəhlizi"ni də, bütün başqa layihələri də icra edəcəyik. Yenə də deyirəm, bu layihənin icrası bizə də, Avropaya da lazımdır. Bu layihənin icrası nəticəsində onların enerji təhlükəsizliyi təmin ediləcək. Ona görə, belə ucuz şantaj hərəkətləri yersizdir. Ancaq onu da qeyd etməliyəm ki, biz təkcə Avropa maliyyə qurumları ilə işləmirik, biz Asiya maliyyə qurumları ilə də işləyirik və daha da səmərəli işləyirik, daha asan yolla vəsait əldə edirik. Misal üçün, Asiya İnkişaf Bankı bu layihəyə böyük vəsait ayırır, özü də qısa müddət ərzində. Asiya İnfrastruktur Bankı da - biz özümüz də bu bankın təsisçisiyik, qısa müddət ərzində böyük vəsait ayırıb. Bu qaz Asiyaya getməyəcək, Avropaya gedəcək, ancaq vəsaiti biz Asiyadan alırıq. Ona görə, əgər kimsə düşünürsə ki, biz indi çətin, çıxılmaz vəziyyətdəyik və bizim qarşımızda hansısa əsassız tələb qoyula bilər, tamamilə yanlış yanaşmadır. Heç kim bizim qarşımızda heç bir tələb qoya bilməz. İstəyirlər əməkdaşlıq etsinlər, istəmirlərsə bizə də lazım deyil. "Cənub Qaz Dəhlizi"ni biz icra edəcəyik və vaxtında".

***"Səs" Analitik Qrupu***

# Baş nazirin müavini Yevlax və Mingəçevirdə icbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlərlə maraqlanıb





***Yanvarın 17-də Baş nazirin müavini Əli Əhmədov Yevlax şəhərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi sahəsində görülən işlərlə maraqlanıb. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev, Milli Məclisin deputatı İlham Məmmədov və Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov əvvəlcə şəhərin mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar.***






Baş nazirin müavini Əli Əhmədov sonra Yevlax Şəhər Mərkəzi Xəstəxanasına yeni gətirilən tibbi avadanlıqla tanış olub, rayonun səhiyyə işçiləri ilə görüşüb.

Görüşdə Əli Əhmədov bildirib ki, icbari tibbi sığorta ilə əlaqədar konsepsiyanın həyata keçirilməsi üçün Azərbaycanın iki bölgəsi baza rayonları seçilib. Yevlax rayonunda və Mingəçevir şəhərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə reallaşdırılacaq və sonra bütün ölkədə tətbiq olunacaq. Yevlaxın və Mingəçevirin seçilməsi təsadüfi deyil. Həm Yevlaxda, həm Mingəçevirdə səhiyyə infrastrukturu xeyli dərəcədə yaxşılaşdırılıb. Yeni xəstəxanalar tikilib, lazımi infrastruktur işləri həyata keçirilib.

Əli Əhmədov qeyd edib ki, bütün dünyada səhiyyə icbari tibbi sığorta əsasında maliyyələşir. Bu, səhiyyənin maliyyələşməsinin yeni, müasir formasıdır. Bunu həyata keçirməkdə məqsəd əhalinin tibbi xidmətlərə əlçatanlığını təmin etmək və səhiyyə xidmətlərin keyfiyyətini yaxşılaşdırmaqdır.

Baş nazirin müavini dövlətin səhiyyəyə ayırdığı vəsaitlərdən səmərəli istifadə edilməsində icbari tibbi sığortanın əhəmiyyətini vurğulayaraq, dövlət tərəfindən səhiyyənin maliyyələşməsi üçün əhəmiyyətli vəsait ayrıldığını bildirib. "Biz səhiyyənin maliyyələşməsinin yeni formasını tətbiq etməklə bu vəsaitlərdən daha səmərəli istifadə olunmasına çalışırıq. İstəyirik ki, dövlət tərəfindən ayrılan vəsaitlər hesabına vətəndaşlara daha yüksək səhiyyə xidmətləri göstərilsin. Qarşıda duran məqsədlərdən biri də səhiyyədəki çatışmazlıqların aradan qaldırılması, həmçinin həkimlərin maddi vəziyyətinin yaxşılaşdırılmasıdır", - deyə Ə.Əhmədov bildirib.

***Ardı səh. 6***

# Baş nazirin müavini Yevlax və Mingəçevirdə icbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlərlə maraqlanıb



*Əvvəli Səh. 5*



Tədbirlərdə çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev 2017-ci ildə pilot ərazilərdə görüləcək işlər haqqında məlumat verib. Qeyd edib ki, Agentlik tabeliyinə verilən tibb müəssisələrinin maliyyələşdirilməsi, inventarizasiyası və kadr məsələlərinin tənzimlənməsini həyata keçirəcək. Bununla yanaşı, sözügedən ərazilərin tibb müəssisələri şəbəkəsinin və mövcud resurslarının optimallaşdırılması, əhalinin icbari tibbi sığorta ilə əhatə olunması, tibb müəssisələrinin idarəçiliyinin icbari tibbi sığortanın tələblərinə uyğunlaşdırılması sahəsində ciddi islahatlar aparılacaq.



Agentliyin direktoru bildirib ki, səhiyyənin maddi-texniki bazasını, kadr potensialını gücləndirmək məqsədilə də tədbirlər görüləcək.

Görüşdən sonra jurnalistlərə müsahibə verən Baş nazirin müavini deyib: "Prezidentin Sərəncamı ilə ölkəmizin iki bölgəsində - Yevlax rayonunda və Mingəçevir şəhərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihələr reallaşdırılacaq. Azərbaycanda icbari tibbi sığorta modeli bu iki bölgənin timsalında sınaqdan keçiriləcək. Biz bunu bir il ərzində yoxlayacağıq və ondan sonra bütün respublikaya tətbiq olunacaq. Güman edirəm ki, bu, olduqca uğurlu modeldir, çünki dünya praktikası nəzərə alınıb".

Əli Əhmədov qeyd edib ki, Yevlax və Mingəçevirdə icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi üçün lazımi şərait yaradılıb, müvafiq qurumlar qarşısında vəzifələr müəyyənləşdirilib. Yaxın zamanlarda artıq ilkin praktik addımlar atılacaq, icbari tibbi sığorta əsasında səhiyyə xidmətləri göstərilməyə başlanacaq.

Baş nazirin müavini daha sonra Mingəçevirdə icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə əlaqədar görülən işlərlə, şəhər Mərkəzi Xəstəxanasında yaradılmış şəraitlə tanış olub, səhiyyə işləri ilə görüşüb. Qeyd olunub ki, Prezident İlham Əliyevin müvafiq Fərmanı ölkədə səhiyyə xidmətlərini müasir tələblərə uyğunlaşdırmaq, bu sahənin mövcud maliyyələşmə mexanizmlərini yeni iqtisadi əsaslarla təkmilləşdirməklə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəltmək məqsədi daşıyır. Söhbət zamanı icbari tibbi sığortanın tətbiqi ilə bağlı qarşıda duran vəzifələrin yüksək səviyyədə həyata keçirilməsinin vacibliyi vurğulanıb, bununla bağlı fikir mübadiləsi aparılıb.



# Akademik Ramiz Mehdiyevin "Yeni dünya nizamı və milli ideya" kitabının təqdimatı olub

***Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Yeni dünya nizamı və milli ideya" adlı kitabının təqdimatı olub.***




AZƏRTAC xəbər verir ki, tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov kitaba müəllifin 2002-ci və 2003-cü illərdə mətbuatda dərc olunmuş iki əsərinin daxil edildiyini bildirib. Diqqətə çatdırılıb ki, bu əsərlərin indi, 13-14 il sonra kitab şəklində nəşr olunaraq oxucuya yenidən təqdim edilməsi səbəbsiz deyil və dərin məntiqə söykənir. Çünki bu əsərlərdə əksini tapan fikir, mülahizə və düşüncələr müasir dövrümüzlə tam səsləşir və aktuallığını əsla itirməyib. Kitabda yeni dünya nizamında milli ideyanın formalaşması və inkişafı barədə yeni ideyalar, yenilikçi fikirlər öz əksini tapıb. Nəşrdəki təhlillər ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən innovativ inkişaf strategiyası nəticəsində Azərbaycanın sürətli inkişafını ehtiva edir.

DİA-nın I prorektoru, professor Əlikram Abdullayev vurğulayıb ki, Azərbaycanda müxtəlif dövrlərdə yürüdülən siyasət, ulu öndər Heydər Əliyev haqqında düşüncələrin də yer aldığı kitabda cəmiyyət və dövlət məfhumlarının fəlsəfəsindən, tarixdə şəxsiyyətin rolundan bəhs edilir. Bu əsər akademik dairələrin müraciət edəcəyi önəmli mənbələrdən biri olacaq. Prorektor vurğulayıb ki, müəllif kitab vasitəsilə Azərbaycanın problemlərinin həllinə dünya siyasi fikrinin həm müasir, həm də keçmiş dövrlərinin görkəmli nümayəndələrinin yanaşmasını əks etdirib. Sanki müxtəlif dövrlərdə yaşayan siyasətçilər bir masa arxasında əyləşərək kəskin problemlərə həll yolları tapmağa nail olublar. Nəşrin oxucularda bu cür təəssürat yaratması müəllifin böyük uğurudur.

Kitabla bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov diqqətə çatdırıb ki, nəşrdə neokonservatizm və azərbaycançılığın nisbəti, milli ideologiya, müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyası qloballaşma kontekstində nəzərdən keçirilir, bununla bağlı fəlsəfi fikirlərə geniş yer verilir. Dünya siyasətində liberalizm və neokonservatizm kimi aparıcı meyillərdən bəhs edən müəllif onların sintezinin Azərbaycan üçün uğurlu ideoloji konstruksiya olduğunu nəzəri və praktiki cəhətdən əsaslandırır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçi, DİA-nın fəlsəfə və sosial psixologiya kafedrasının müdiri, professor Etibar Nəcəfov, akademiyanın tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova, hüquq kafedrasının müdiri, dosent Fəxrəddin Nağıyev qeyd ediblər ki, aktual mövzuları əhatə edən elmi əsərləri ilə vaxtaşırı oxucuların diqqətini cəlb edən akademik Ramiz Mehdiyevin bu kitabı zamanla sınanmış fəlsəfi baxışlar, fikir və mülahizələrlə zəngindir. Bildirilib ki, nəşrdə, həmçinin Heydər Əliyev şəxsiyyəti üçün xarakterik olan liderlik, müdriklik, uzaqgörənlik və digər nadir keyfiyyətlərə, Ulu Öndərin xilaskarlıq missiyasına, milli ideyanın və məfkurənin formalaşdırılması, dövlət quruculuğu sahəsindəki roluna və misilsiz xidmətlərinə toxunulur. Müəllif Ümummilli Liderin siyasi portretinə özünəməxsus fəlsəfi ştrixlər əlavə edir. Qeyd edək ki, "Şərq-Qərb" nəşriyyat evi tərəfindən çap olunan kitab oxuculara Azərbaycan və rus dillərində təqdim edilib.

# Azərbaycan beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi tanınır

## *AŞPA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlər üzrə komitəsinin sədri, Milli Məclisin deputatı Sahibə Qafarovanın yap.org.az-a müsahibəsi*

***- Sahibə xanım, ölkəmizin xarici siyasətdə əldə etdiyi nailiyyətlərə, qarşıya qoyulan hədəflərə toxunaq. Bu mənada ötən ilin nəticələrini necə dəyərləndirirsiniz?***

- 2016-cı il bütün dünya üçün heç də asan keçmədi. Siyasi manipulyasiyalar nəticəsində birjalarda neftin qiymətinin kəskin ucuzlaşması fonunda qlobal iqtisadiyyat arzuolunmaz çətinliklərlə üzləşdi, ayrı-ayrı ölkələrdə iqtisadi aktivlik əhəmiyyətli dərəcədə aşağı düşdü, bir sıra hallarda sosial proqramlar ixtisara salındı, dünyada yoxsulluğun və işsizliyin kəskinləşməsi kimi problemlər insanların ciddi etirazları və bir sıra ölkələrdə xoş olmayan hadisələrin meydana gəlməsi ilə yadda qaldı. Bununla yanaşı, qlobal təhlükəsizliyi təhdid edən terror hadisələri, müharibələr, bəzi ölkələrdə səngiməyən xaos ötən il üçün də xarakterik oldu. Lakin sevindiricidir ki, xarici mənfi təsirlər nəticəsində yaranan yeni şəraitdə respublikamız Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq özünün güclü iqtisadi və maliyyə potensialını səfərbər etməyə nail oldu. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bir sıra çətinliklərlə yadda qalan 2016-cı ildə respublikamızda sabitliyin və inkişafın təmin olunması istiqamətində uğurlar əldə olunduğun vurğuladı. O cümlədən, xarici siyasətdə Azərbaycanın nailiyyətləri kifayət qədər əhatəli oldu. Bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı strateji tərəfdaş kimi tanınır. Həyata keçirilən xarici siyasət sayəsində ölkəmiz ikitərəfli münasibətlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Sahib olduğu resurslardan səmərəli istifadə edərək qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdıran ölkəmiz həm beynəlxalq təşkilatlarda, həm də ayrı-ayrı əməkdaşlıq platformaları çərçivəsində öz mövqeyini gücləndirir. Bu isə Azərbaycanın müsbət beynəlxalq imicinin möhkəmlənməsinə müstəsna töhfələr verir. Azərbaycanın təşəbbüsü ilə yaradılan üçtərəfli əməkdaşlıq platformaları dövlətlər arasında münasibətlərin inkişafına, eyni zamanda regional məsələlərin həllinə yeni töhfə



verir. Zamanında ölkəmizin fəal səyləri sayəsində yaradılan və hazırda uğurla fəaliyyət göstərən Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Rusiya formatları regionda təhlükəsizliyin təmin edilməsi və əməkdaşlığın dərinləşməsi üçün çox vacib birliklərdir. Ümumiyyətlə götürdükdə, respublikamız, təcavüzkar Ermənistan istisna olmaqla, bütün qonşularla dostluq münasibətlərinə malikdir. Azərbaycanın dövlət başçısı İlham Əliyev region dövlətləri və tərəfdaşlarla əlaqələrin daha yüksək səviyyəyə qaldırılmasına güclü siyasi iradə nümayiş etdirir. Prezident İlham Əliyevin qonşu ölkələrin dövlət başçıları və digər yüksək səviyyəli rəsmiləri ilə keçirdiyi çoxsaylı görüşlərdə ikitərəfli və çoxtərəfli münasibətlərə dair məsələlərin geniş spektri müzakirəyə çıxarılıb, səmərəli danışıqlar aparılıb. Azərbaycanın dövlət başçısının irəli sürdüyü fəal təşəbbüslər bir qayda olaraq qonşu ölkələrin müvafiq dairələrində də yüksək qiymətləndirilir və dövlətlərarası münasibətlərin qurulmasında mütləq nəzərə alınır.

***- Ötən il baş verənlər sırasında Azərbaycan hərb tarixində möhtəşəm bir uğurun - aprel döyüşlərində qazanılan qələbənin yeri xüsusidir. Bu qələbənin qazanılması Dağlıq Qarabağ münaqişəsinin həllində də mühüm əhəmiyyətə malikdir...***

- Birmənalı şəkildə qeyd etmək lazımdır ki, dünyadakı ikili standartlar və təcavüzkar tərəfin işğalçılıq siyasətindən əl çəkməməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bu vaxtadək həll olunmamasının əsas səbəblərindəndir. Ermənistan BMT və digər beynəlxalq təşkilatların işğala son qoymaq barədə qərar və qətnamələrini yerinə yetirmir, Azərbaycan torpaqları hələ də işğal altında saxlanılır. Əlbəttə, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və bu gün Dağlıq Qarabağ münaqişəsinin həlli rəsmi Bakının xarici siyasətində birinci məsələdir. Həyata keçirilən uğurlu xarici siyasət kursunun fonunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi məsələsi beynəlxalq gündəmin aktual məsələlərindən birinə çevrilib. Azərbaycan konfliktin beynəlxalq hüquq normaları əsasında, ədalətli həllinə nail olmaq məqsədilə qlobal səviyyədə genişmiqyaslı iş aparır, beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Müəyyən müddətdir ki, davam edən danışıqlar prosesində ölkəmiz nəinki öz həqiqətlərini dünyaya çatdıra bilib, həm də siyasi, diplomatik, iqtisadi, hərbi sahələrdə işğalçı Ermənistan üzərində aşkar üstünlüyə nail olub. Digər sahələrdə olduğu kimi, ölkənin ərazi bütövlüyü məsələsində də respublika rəhbərliyinin qətiyyətli və birmənalı mövqe sərgiləməsi bəzi xarici ermənipərəst qüvvələrin müxtəlif qərəzli niyyətlərini dəfələrlə iflasa uğradıb.

Ümumiyyətlə, danışıqların hazırkı mənzərəsi Azərbaycanın aşkar üstünlüyünü, Ermənistanın isə çətin vəziyyətdə olduğunu göstərir.

Aprel döyüşlərinə gəlincə, 2016-cı ilin aprelində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin təmas xəttində müşahidə olunan gərginlik və Azərbaycan Ordusunun mühüm uğuru Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni vəziyyətin yaranmasını şərtləndirib. Daha da dəqiqləşdirsək, son hadisələrin fonunda ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatların nümayəndələri, parlamentarilər, rəsmilər Ermənistanın təxribatçı hərəkətlərinə son qoyulmasının və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruriliyini bəyan etdilər. Bu isə onu deməyə əsas verir ki, dünya ictimaiyyəti Ermənistanın qeyri-konstruktiv mövqeyini kəskin qınayır. İrəvandakı kriminal hakimiyyət baş verənlərdən dərs çıxarmalıdır, anlamalıdır ki, Azərbaycan artıq 90-cı illərin əvvəllərində olan Azərbaycan deyil. Bu gün Azərbaycanın iqtisadi qüdrəti, hərbi imkanları, Ordusununun gücü Dağlıq Qarabağ və ətrafındakı ərazilərimizi istənilən üsulla azad etməyə imkan verir. Əgər, Ermənistan rəhbərliyi aprel döyüşlərindən nəticə çıxarmasa, onda gələcəkdə onların alacağı bu tip dərslərin nəticələri daha ağır olacaq.

***- Sahibə xanım, ötən il "Azərbaycanda multikulturalizm ili" elan olunmuşdu. "Multikulturalizm ili" çərçivəsində keçirilən tədbirlərin ölkəmizdə mövcud olan multikulturalizm ənənələrinin təbliğinə, həmçinin, Azərbaycanın dünyada dinlər və mədəniyyətlər arasında dialoqa verdiyi töhfələri necə qiymətləndirmək olar?***

- Azərbaycan tolerantlığı, çoxmədəniyyətliliyi sərvətə çevirməyi bacaran azsaylı ölkələrdən biridir. Tarixin bütün dövrlərində Azərbaycan dini, milli və mədəni dəyərlərə və müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların mənsublarına münasibətinə görə, sözün əsl mənasında, tolerantlıq nümunəsi olub. Təsadüfi deyil ki, müxtəlif zaman kəsiklərində işğallara məruz qalmasına, müxtəlif xalqlar tərəfindən assimilyasiya cəhdlərinə baxmayaraq, Azərbaycan xalqı daim ən yüksək dini, mənəvi dəyərlərin daşıyıcısı olub və yanaşı yaşadığı xalqların mənəvi-mədəni dəyərlərinin yüksək səviyyədə formalaşmasına və inkişafına mühüm töhfələr verib. 70 ilə yaxın bir müddətdə ateizmin təbliğ edildiyi və hökm sürdüyü SSRİ mühitində yaşamasına baxmayaraq, xalqımız daim mənəvi-dini dəyərlərə əsaslanan humanist meyilləri yaşadıb. Bunun da nəticəsində bu gün Azərbaycan xalqı güclü dövlət dəstəyi və qayğısının fonunda ən yüksək mənəvi-əxlaqi davranış nümunələrini özündə təcəssüm etdirməkdə və örnək təşkil etməkdədir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra İslam ənənələrinə əsaslanan müqəddəs bayramların qeyd olunmasının bərpa edilməsi, hər bir vətəndaşa etiqad azadlığından yararlanmağa maksimum şəraitin yaradılması, eləcə də müxtəlif millətlərin və dinlərin nümayəndələrinə istənilən şərait və şərtlərdə yüksək səviyyəli diqqət və qayğının göstərilməsi ölkəmizdəki mövcud olan humanitar dəyərlərin inkişafına güclü stimul verib. Bu da, şübhəsiz, Azərbaycanı yüksək səviyyəli dəyərlərin daşıyıcısı olan müxtəlif xalqlar və dinlərin nümayəndələrinin yanaşı yaşadığı ideal və arzuedilən məmləkətə çevirib.

***- Bu mənada "Azərbaycanda multikulturalizm ili" çərçivəsində keçirilən tədbirlərin əhəmiyyətini necə dəyərləndirirsiniz?***

- Cari ildə keçirilən tədbirlər, mühüm beynəlxalq konfranslar və forumlar Azərbaycanın dünyada sülh və təhlükəsizliyin, mədəniyyətlər və dinlər arasında dialoqun, multikulturalizmin təmin olunmasına nə qədər böyük əhəmiyyət verdiyini göstərir. Artıq Bakıda Beynəlxalq Humanitar Forum, Mədəniyyətlərarası Dialoq Forumu, dünya dinlərinin liderlərinin Zirvə görüşləri keçirilməsi ənənə halını alıb. 2016-cı ilin aprel ayında Bakı şəhəri BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna, sentyabrda isə V Humanitar Foruma uğurla ev sahibliyi etdi. Eyni zamanda, Avropanın bir sıra böyük şəhərlərində Azərbaycan multikulturralizm modelinin təbliğ olunması, onun mühüm üstünlüklərin beynəlxalq ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə silsilə tədbirlər təşkil olundu. Görülən işlərin nəticəsi olaraq, Çexiyada, Litvada, Polşada, Almaniyada, İsveçrədə, İtaliyada, Portuqaliyada, Türkiyədə, İndoneziyada, Rusiyada, Gürcüstanda və başqa ölkələrdə bu gün Azərbaycan multikulturalizmi fənni tədris proqramlarına daxil edilib. Respublikamız həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarına uğurla ev sahibliyi etdi, bu il isə İslam Həmrəyliyi Oyunlarını təşkil edəcək. Hesab edirəm ki, bu faktların özü belə Azərbaycanın multikulturalizm modelinin dünya üçün nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləyir. Bu gün dünyada baş verən hadisələr, müharibələr, hər gün daha da genişlənməkdə olan və hazırda bütün dünya xalqlarını və ölkələrini təhdid edən terror dalğası, miqrant və qaçqın problemi fonunda Azərbaycanın multikulturalizm modelinin nə qədər əhəmiyyətli olduğunu bir daha dərk etmiş oluruq. Bəli, "Multikulturalizm ili" artıq başa çatıb və sadalananların fonunda ölkəmizin çox böyük nailiyyətlər qazandığını söyləyə bilərik. Amma təbii ki, Azərbaycanın multikulturalizm ənənələri, bu istiqamətdə verdiyi töhfələr bundan sonra da möhkəmlənərək davam edəcək.

# Bakıda təməli qoyulan əczaçılıq zavodu Azərbaycan ilə İranın uğurlu əməkdaşlığının bariz göstəricisidir

***Bakıda təməli qoyulan əczaçılıq zavodu Azərbaycanın qeyri-neft sektorunda həyata keçirilən mühüm layihələrdən biridir. Bu, eyni zamanda, Azərbaycan ilə İranın birgə uğurlu əməkdaşlığının bariz göstəricisidir.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov yanvarın 17-də İran İslam Respublikasının kooperasiya, əmək və sosial rifah naziri Əli Rəbiinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.

Baş nazirin müavini bildirib ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr günbəgün inkişaf edir. "İran dövləti və xalqı bizim üçün dost və qardaşdır. Həm dinimiz birdir, eyni zamanda, dilimiz, adət-ənənələrimiz, tariximiz, mədəniyyətimizdə bir çox oxşarlıqlar var", - deyə Əli Həsənov vurğulayıb.

Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə qalxmasında ulu öndər Heydər Əliyevin xüsusi rolunu vurğulayan Əli Həsənov qeyd edib ki, bu əməkdaşlıq Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri əlaqələrimizin inkişafını daha da sürətləndirib.

İran şirkətlərinin Azərbaycanda bir sıra layihələrdə iştirak etdiyini diqqətə çatdıran Baş nazirin müavini deyib: "Bu gün Azərbaycan dinamik inkişaf edir. Əgər 2003-cü ildə Azərbaycanda yoxsulluq həddi 49 faiz idisə, bu gün 5 faizə enib. İqtisadiyyatımızın neftdən asılılığı əhəmiyyətli dərəcədə azalıb. Ölkədə ümumi daxili məhsulun 70 faizdən çoxu qeyri-neft sektorunda istehsal olunur. Azərbaycanın əsas məqsədlərindən biri inkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş ölkələr sırasına çıxmaqdır. Bu, Azərbaycan Prezidentinin qarşıya qoyduğu məqsəddir və buna nail olacağıq".



Prezident İlham Əliyevin Azərbaycan xalqının milli maraqlarına söykənən müstəqil siyasət yürütdüyünü diqqətə çatdıran Əli Həsənov qeyd edib ki, ölkələrimiz beynəlxalq məsələlərdə eyni mövqe nümayiş etdirir, bir-birilərini dəstəkləyirlər. İran və Azərbaycan prezidentləri tez-tez görüşür, qarşılıqlı səfərlər edirlər. Ölkələrimiz arasındakı əlaqələri pozmaq istəyən qüvvələr olsa da, onlar öz istəklərinə nail ola bilməyəcəklər.

"Azərbaycanın yeganə problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Torpaqlarımızın işğalı nəticəsində 1 milyondan çox qaçqın və məcburi köçkünümüz var. Beynəlxalq təşkilatlar münaqişənin həlli ilə bağlı bir çox qərar və qətnamələr qəbul etsələr də, onların heç biri yerinə yetirilmir. Beynəlxalq tədbirlərdə, xüsusən BMT tədbirlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunarkən İran İslam Respublikası Azərbaycanın haqlı mövqeyinə həmişə müsbət yanaşıb və səsvermələrdə Azərbaycan ilə birgə olduğunu nümayiş etdirib", - deyə Əli Həsənov vurğulayıb.

Baş nazirin müavini respublikamızın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkdiyi, iqtisadi vəziyyətinin ağır olduğu vaxtlarda İranın İmam Xomeyni İmdad Komitəsi və Qızıl Aypara ("Hilal Əhmər") Cəmiyyəti humanitar təşkilatlarının ölkəmizə etdikləri yardımlara görə təşəkkürünü bildirib. Qeyd olunub ki, həmin ağır illərdə ilk olaraq İranın Qızıl Aypara Cəmiyyəti Azərbaycana humanitar yardım əlini uzadaraq Biləsuvar, Saatlı və Sabirabad rayonlarında 7 çadır düşərgəsi qurdu və 50 min nəfərədək məcburi köçkün müvəqqəti olaraq bu düşərgələrdə məskunlaşdı. Həmin çətin vaxtlarda Azərbaycanın iqtisadi imkanları çox aşağı səviyyədə idi.

Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etdiyini diqqətə çatdıran Əli Həsənov deyib: "Hazırda biz mürəkkəb bir dövrdə yaşayırıq. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu gün İslam həmrəyliyinə çox böyük ehtiyac var. Dövlətimizin başçısının atdığı bu addım Azərbaycanın İslam aləminin həmrəyliyinə verdiyi önəmin göstəricisidir. Azərbaycan tolerant ölkədir. Ermənistandan fərqli olaraq ölkəmizdə müxtəlif dinlərə məxsus insanlar dinc və mehriban şəraitdə yaşayırlar. Onlar Azərbaycan vətəndaşları ilə bərabər hüquqlara malikdirlər".

Əli Həsənov əminliyini bildirib ki, Azərbaycan ilə İran arasındakı əlaqələr bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

Qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən İran İslam Respublikasının kooperasiya, əmək və sosial rifah naziri Əli Rəbii diqqətə çatdırıb ki, onu müşayiət edən nümayəndə heyətinin tərkibində ölkə parlamentindəki nüfuzlu şəxslər - dostluq qrupunun üzvləri, komitə rəhbərləri, rəyasət heyətinin üzvləri təmsil olunur: "Bu, İranın Azərbaycan ilə əlaqələri daha da inkişaf etdirmək istəyinin göstəricisidir. Biz Azərbaycanın gündən-günə inkişafını, abadlıq-quruculuq işlərini, yeni-yeni binaları, insanların rifah halının yaxşılaşmasını gördükdə çox sevinirik".

Əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan Əli Rəbii deyib: "Humanitar sahədə əlaqələrin inkişaf etdirilməsi üçün geniş potensial var. Əlillərin reabilitasiyası, protezlərin hazırlanması, sanatoriyalar və digər bu kimi istiqamətlər üzrə əməkdaşlığı genişləndirməyə hazırıq. Nəqliyyat-yol infrastrukturunun təkmilləşdirilməsi sahəsində də böyük işlər görülür, birgə layihələr reallaşdırılır. Azərbaycan marşrutu bizim üçün etibarlı və təhlükəsiz istiqamətdir. Hazırda Rəşt-Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu xəttinin çəkilməsi üzərində iş gedir. Bu, həm ölkələrimizdə yeni iş yerlərinin açılmasına, həm də insanların bu marşrutlardan faydalanmasına, gəlir əldə etməsinə səbəb olacaq. Eyni zamanda, dənizdə sərnişin və yük daşımaları sahəsində də əməkdaşlıq üçün real imkanlar var".

Görüşdə ölkələrimiz arasında iqtisadi, humanitar əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

## İslam İnkişaf Bankı Azərbaycan Dəmir Yollarının regional layihələrində iştirak etməkdə maraqlıdır

İslam İnkişaf Bankı "Azərbaycan Dəmir Yolları" QSC-nin həyata keçirdiyi regional layihələrdə iştirak etməkdə maraqlıdır. "Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu fikirlər "Azərbaycan Dəmir Yolları" QSC-də İslam İnkişaf Bankının MDB ölkələri üzrə regional direktoru Hişan Marufun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı deyilib. Görüşdə son dövrlər Azərbaycan dəmir yolu sektorunda həyata keçirilən islahatlar, beynəlxalq və regional layihələrin icra vəziyyəti, qarşıda duran vəzifələr haqqında məlumat verən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, ortamüddətli perspektivdə Azərbaycanın regional logistik mərkəzinə çevrilməsinin əsas strateji hədəflərdən biri olduğunu bildirib, həmçinin təkcə regional deyil, artıq qlobal əhəmiyyətə malik "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yenidən qurulması istiqamətində atılan addımlar barədə məlumat verib. Layihə çərçivəsində "Azərbaycan Dəmir Yolları" QSC ilə İslam İnkişaf Bankı arasında əməkdaşlıq imkanları ətraflı müzakirə edilib.



İslam İnkişaf Bankının MDB ölkələri üzrə regional direktoru Hişan Maruf təmsil etdiyi təşkilatın Azərbaycanla qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin əsas prioritet istiqamətlərdən biri olduğunu və bu əməkdaşlıq kontekstində "Azərbaycan Dəmir Yolları" QSC-nin həyata keçirdiyi regional layihələrdə iştirak etməkdə maraqlı olduqlarını bildirib.

## Bişkekdə təyyarə qəzası nəticəsində həlak olanların xatirəsi Qırğızıstanın Azərbaycandakı səfirliyində anılıb

***Bişkekdə yük təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsinin yad edilməsi üçün Qırğızıstanın Azərbaycandakı səfirliyində başsağlığı kitabı açılıb.***

AZƏRTAC xəbər verir ki, yanvarın 17-də Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov səfirliyə gələrək Azərbaycan hökuməti adından başsağlığı verib, kitaba ürək sözlərini yazıb. Qırğızıstanın Azərbaycandakı səfiri Aycikit Buranov qırğız xalqının kədərinə şərik olduğu üçün Azərbaycan xalqına və ölkə rəhbərliyinə təşəkkürünü bildirib. O, Azərbaycan xalqının həmişə Qırğızıstan xalqının yanında olduğunu söyləyib. Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun, ictimaiyyətin nümayəndələri də səfirliyə gələrək başsağlığı verirlər. Xatırladaq ki, Qırğızıstan Prezidenti Almazbek Atambayev baş vermiş faciə ilə əlaqədar yanvarın 17-ni ölkədə matəm günü elan edib.



# İndiyədək Çexiya tərəfindən Azərbaycana əsas kapitala 1,3 milyard dollar investisiya yatırılıb






***Azərbaycanda çex kapitallı 19 şirkət fəaliyyət göstərir və indiyədək Çexiya tərəfindən ölkəmizə əsas kapitala 1,3 milyard dollar investisiya yatırılıb. Çexiya şirkətləri dəyəri 1,6 milyard manat olan 6 layihə üzrə podratçı qismində də iştirak edirlər. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev yanvarın 17-də Bakıda rəsmi şəxslərin və iş adamlarının iştirakı ilə keçirilən Azərbaycan-Çexiya biznes-forumunda deyib.***

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan-Çexiya siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın uğurla inkişaf etdiyini, ölkələrimiz arasında səmimi dostluq münasibətlərini vurğulayıb. Bildirilib ki, Azərbaycan və Çexiya iş adamlarının iştirakı ilə belə tədbirlər hər il keçirilir və bu, sayca 7-ci işgüzar tədbirdir.

Bugünkü biznes-forumda çox sayda iş adamının iştirak etməsi əməkdaşlığın genişləndirilməsinə göstərilən maraqdan xəbər verir. Azərbaycanda çex kapitallı 19 şirkət fəaliyyət göstərir və indiyədək Çexiya tərəfindən ölkəmizə əsas kapitala 1,3 milyard dollar investisiya yatırılıb. Çexiya şirkətləri dəyəri 1,6 milyard manat olan 6 layihə üzrə podratçı qismində də iştirak edirlər. Ölkələrimiz arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensial var və Azərbaycan qeyri-neft sektoru sahəsində Çexiya ilə ticarət dövriyyəsinin artırılmasında maraqlıdır.

Nazir Şahin Mustafayev biznes-forumun başlıca məqsədlərindən birinin məhz ölkələrimiz arasında ticarət əlaqələrinin genişləndirilməsi məsələlərinin müzakirəsi olduğunu qeyd edib, Azərbaycanın kənd təsərrüfatı (meyvə-tərəvəz, çay, fındıq və s.), şərab və şərabçılıq məhsullarının, sənaye məhsullarının Çexiyaya ixracı imkanlarını diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan iş adamlarının marağı olacağı təqdirdə Çexiyaya ixrac missiyası təşkil oluna bilər. Bundan başqa, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, turizm sahələrində də əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Qeyd edilib ki, çex şirkətləri Azərbaycandakı sənaye parklarında və aqroparklarda yaradılmış əlverişli imkanlardan yararlanmaqla, ölkəmizə investisiya yatıra, ölkəmizin nəqliyyat və tranzit imkanlarından istifadə edə bilərlər.

Çexiya Respublikasının sənaye və ticarət naziri Yan Mladek ölkələrimizin strateji tərəfdaşlar olduğunu, əlaqələrimizin inkişaf etdiyini vurğulayıb. Çexiyanın iqtisadiyyatı və Azərbaycan-Çexiya iqtisadi əlaqələri barədə məlumat verən Yan Mladek qeyd edib ki, Azərbaycan Çexiyaya xam neft ixrac edir. Bununla belə, qeyri-neft sektoru sahəsində də ölkələrimiz əməkdaşlıq edir və bu sahədə əlaqələrin genişləndirilməsində maraqlıdır. Çexiyalı nazir ölkəsinin infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, səhiyyə, təhsil, enerji, texnologiyalar sahəsində Azərbaycanla əlaqələrinin inkişafına maraq göstərdiyini diqqətə çatdırıb.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov Azərbaycanın biznes və investisiya imkanları, Çexiya Ticarət və Sənaye Palatasının MDB ölkələri üzrə icraçı direktoru Frantişek Masopust Çexiya şirkətlərinin fəaliyyəti barədə məlumat veriblər. Biznes-forum iş adamları arasında əlaqələrin genişləndirilməsi və yeni əməkdaşlıq istiqamətlərinin müzakirə edildiyi ikitərəfli görüşlərlə davam etdirilib.

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə keçirilmiş biznes-forumda kənd təsərrüfatı, qida sənayesi, maliyyə, sığorta, energetika, logistika, tikinti, neftkimya, maşınqayırma, şüşə istehsalı və digər sahələrdə fəaliyyət göstərən 160-dan çox iş adamı iştirak edib.

# 15 nəfərin ölümünə səbəb olanlar bəraətə can atırlar

***Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində Binəqədi rayonu ərazisində çoxmərtəbəli yaşayış binasında baş verən yanğın hadisəsində təqsirləndirilən Miryusif Mahmudov, Ələkbər Əsgərov, Uğur Bəşirov, Ədalət Rəcəbov, Nizami Orucov, Ağacavad Məmmədov və Akif Əlibəyovun cinayət işi üzrə məhkəmənin növbəti prosesi keçirilib. SİA-nın verdiyi məlumata görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən M.Mahmudovun vəkili İlhamə Həsənova müdafiə çıxışı edib.***

O bildirib ki, işlər müqavilə və smeta sənədləri əsasında həyata keçirilib, material nəinki bu şirkətdə, ümumiyyətlə, Azərbaycanda istehsal olunmur, Türkiyədən bütün qatqılar qatılmış şəkildə alınır: "Sınaq üçün nümunələri Standartlaşma, Metrologiya və Patent üzrə Komitənin əməkdaşları özləri seçib götürürlər, sınağa götürülən nümunələrlə üzləmədə istifadə edilən nümunələrin tərkibi eynidir".

Xatırladaq ki, ibtidai istintaq zamanı şahid qismində dindirilmiş "Qlobal Stone" MMC-nin baş mühəndisi Mehdiyev Nəsimi Rəsul oğlu ifadəsində göstərib ki, Bakı şəhəri, Azadlıq prospekti 200/36 ünvanında yerləşən binanın fasadının üzlənməsində istifadə olunmuş poliuretan məhsulu "Global Stone" MMC-də istehsal olunub. Həmin məhsulun istehsalında istifadə edilmiş xammallar da Türkiyənin "Tekpol" şirkətindən alınmışdır. Həmin ünvanda yerləşən binanın üzlənməsi prosesi 2012-2013-cü illərdə həyata keçirilmişdir. Həmin dövrdə baş mühəndis vəzifəsini kimin icra etməsini bilmir, baş mühəndis vəzifəsini icra etmiş şəxs məhsulun istehsalından sonra oda davamlı boyanın vurulmasına da nəzarət etməli idi. "Global Stone" MMC-də istehsal edilmiş məhsulların keyfiyyətinə, oda davamlılığına dair müvafiq icra hakimiyyəti orqanlarından sertifikatlar alınmasından heç bir məlumatı yoxdur. "Global Stone" və "Global Construction" MMC-nin təsisçisi və əsas rəhbəri olan Miryusif Mahmudov da şirkətin fəaliyyətinə nəzarət edib. Sonra söz təqsirləndirilən şəxslərə verilib. Təqsirləndirilən şəxslər ifadələrini növbəti məhkəməyə saxlayıblar. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesinin növbəti vaxtı yanvarın 23-ü saat 11:00-a təyin edilib.

Xatırladaq ki, dövlət ittihamçısı çıxışında M.Mahmudovun 10 il, Ə.Əsgərovun 7 il, U.Bəşirovun 8 il, Ə.Rəcəbovun 7 il, N.Orucovun 5 il , A.Məmmədovun 5 il və A.Əlibəyovun 5 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, ötən il mayın 19-da paytaxtın Binəqədi rayonu ərazisində çoxmərtəbəli yaşayış binasında ağır nəticələrə səbəb olmuş yanğınla bağlı binaların üzlənməsində istifadə olunan "poliuretan" məmulatını istehsal edən "Qlobal Stone" və "Global Construction" MMC təsisçisi Miryusif Mahmudov, "Qlobal Stone" MMC-nin baş direktoru Uğur Bəşirov, "Global Construction" MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi rayon mənzil-kommunal təsərrüfat birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov, Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi Nizami Orucov təqsirləndirilirlər. Bundan başqa, cinayət işinə "Dərnəgül Boru" Zavodunun laboratoriya rəhbəri Ağacavad Məmmədov və Səhiyyə Nazirliyi yanında Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Akif Əlibəyov da cəlb edilib. Onlar barəsində həbs qətimkan tədbiri seçilməyib. Yanğın nəticəsində 15 nəfər ölüb, 50 nəfər xəsarət alıb.



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

18 yanvar 2017-ci il

# 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması...

***Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunduğunu bildirdi.***

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini, İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin bu qərarının islam dünyasının həmrəyliyinə böyük önəmin göstəricisi olduğunu bildirib: "İndiyədək müsəlman ölkələrini din ətrafında birləşməyə çağıran müəyyən təşəbbüslər göstərilib. Dövlətimizin başçısı isə, tarixdə ilk dəfə olaraq, islam dünyasına siyasi mesaj ünvanladı, vahid mövqedən çıxış etməyin, birliyə nail olmağın, eyni zamanda, dünyaya inteqrasiyanın vacibliyinə işarə etdi".

Söhbət etdiyimiz müsahiblərimiz də 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının müsəlman dünyasında birliyin, həmrəyliyin yaranmasına böyük dəstəyin nümunəsi olduğunu söylədilər.



**Politoloq Elçin Mirzəbəyli:**

- Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunması, bütövlükdə, islam dünyasına, eləcə də dünyaya mesaj xarakteri daşıyır. Məqsədyönlü şəkildə dünyada, artıq uzun illərdi ki, islamofobiya hökm sürür, islam ölkələrinin əleyhinə kampaniya aparılır. Ayrı-ayrı güclər müsəlman dövlətlərinin enerji resurslarına yiyələnmək üçün fəaliyyətlərini islamofobiya faktoru üzərində qururlar. Belə amillərə qarşı mübarizə aparmaq və mübarizə üçün də həmrəylik nümayiş etdirmək lazımdır. Azərbaycan hər zaman islam həmrəylik prinsipindən çıxış edib. İslamın insanları terrora, zülmə, əsarətə deyil, azadlığa və insan haqlarının qorunmasına, günahsız insanlara qarşı mərhəmət nümayiş etdirməsinə dayandığını vurğulayıb. Yeni bütün dünyaya, bir daha islamın mərhəmət və humanizm prinsiplərinə əsaslanan bir din olduğunu çatdırıb. Bütün dinlərin, əslində, sülhə, həmrəyliyə çağırdığını xüsusi olaraq, vurğulayıb. Ölkəmizdə elan olunan 2017-ci il "İslam Həmrəylik ili" təkcə Azərbaycan üçün, islam dünyası üçün deyil, bütövlükdə, bəşəriyyət üçün önəmli hadisədir. Çünki dinlərarası qarşıdurma heç kəsə xoşbəxtçilik gətirmir. Günahsız insan ölümlərinə səbəb dünyada hökm sürən ziddiyyətlərdir. Yaxın Şərqdə baş verən hadisələr də bunu açıq şəkildə sübuta yetirir. İslamın əsl mahiyyətini Azərbaycan öz təqdimatında bütün dünyaya çatdırmağa cəhd göstərir. Təəssüflər olsun ki, bu gün maraqlı dairələr islamı terroru dəstəkləyən din kimi qələmə verirlər. Halbuki islamda dinc və günahsız insanın ölümü bəşəriyyətin ölümü kimi qiymətləndirilir.

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli:**

- 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması və İslam Həmrəylik Oyunlarına keçiriləcəyinə hazırlıq görülməsi Azərbaycanın müsəlman dünyasına verdiyi ən böyük töhfələrdəndir. Həm də Azərbaycanın təbliğ olunması və mədəniyyətinin nümayişi üçün də bunun əhəmiyyəti böyükdür. Nəyə görə? Birincisi, bu, islam ölkələri arasında həmrəyliyin daha da inkişaf etməsinə, mədəniyyətlərin daha da yaxınlaşmasına, xalqların və dövlətlərin biri-birini daha yaxından tanımasına dəstək verəcək. İkinci bir tərəfdən, Azərbaycanın burada bir özəlliyi var. Bu özəllik də ondan ibarətdir ki, Azərbaycan müsəlman dövləti olmaqla yanaşı, həm də demokratik bir ölkədir. Bildiyiniz kimi, bir çox islam ölkələrində hələ də müxtəlif sistemlər mövcuddur. Amma Azərbaycan müsəlman ölkəsi olaraq, eyni zamanda, kifayət qədər demokratik bir ölkədir. Bu baxımdan, Azərbaycanda mövcud olan siyasi, dini, multikultural sistemlərinin islam mədəniyyətinin yaşadılması, inkişaf etdirilməsi və dünyaya inteqrasiya olunması nümunəsini digər islam ölkələrinə göstərmiş olacaq. Bu baxımdan, həm İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, həm də 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması kifayət qədər böyük önəm daşıyır.



**"İnformasiya Təşəbbüslərinə Dəstək" ictimai birliyinin sədri Cəsarət Hüseynzadə:**

- Sözün həqiqi mənasında, bu gün beynəlxalq münasibətlər sistemində öz fəaliyyətini beynəlxalq hüquq çərçivəsində həyata keçirən çox az dövlətlər mövcuddur. Azərbaycan Respublikası isə bütün sahələrdə bu hüququn prinsiplərini rəhbər tutan bir dövlətdir. Ölkəmiz həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli münasibətlərdə bu prinsipi əsas tutur. Amma fakt ondan ibarətdir ki, bəzi qüvvələr, islam ölkələrində müxtəlif çirkli fəaliyyətlər həyata keçirməklə, islam və onun dəyərlərinə kölgə salmağa çalışırlar. Belə bir şəraitdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması dünyaya bir mesajdır. 2017-ci ildə həm ölkəmizdə 2017- İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, həm də "İslam Həmrəyliyi İli"nin elan olunması strateji əhəmiyyət daşıyır. Azərbaycan həddindən atıq multikultural dəyərlərə malik bir ölkədir. Eyni ilə əhalinin əksər hissəsi islam dəyərlərinə və inanclarına malikdir. Azərbaycan islam dünyasında böyük nüfuza malik bir ölkədir. Bu il həm "İslam Həmrəyliyi Oyunları"nın keçirilməsinin planlaşdırılması, həm də "İslam Həmrəyliyi İli"nin elan olunması, eləcə də müxtəlif çağırışları və digər fəaliyyətləri ilə islam dünyasına növbəti töhfəsini verəcəkdir.



***GÜLYANƏ***

## YAP Binəqədi rayon təşkilatı ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarına start verilib

***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının IX konfransının keçirilməsi ilə bağlı hazırlıq işlərinə artıq start verilib. Binəqədi rayonu, 7-ci mikrorayon, S.S.Axundov küçəsi, 3123-cü məhəllə ünvanlı (138 saylı uşaq bağçası) ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib. Yığıncaq ölkəmizdə, eləcə də Binəqədi rayonunda Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu islahatlardan bəhs edən videoçarxın nümayişi ilə başlanıb.***



Tədbiri giriş sözü ilə açan ərazi ilk partiya təşkilatının sədri Sehranə Qasımova hesabat məruzəsi ilə çıxış edərək, ilk partiya təşkilatının fəaliyyəti barədə geniş məlumat verib: "Hesabat dövrü ərzində partiya sıraları kəmiyyət və keyfiyyət baxımından, xüsusilə, gənclərin hesabına genişlənib. Təşkilatda hazırda qeydiyyatda olan 31 nəfər partiya üzvünün əksəriyyəti gənclərdir və təşkilat üzvləri partiya tərəfindən keçirilən ictimai-siyasi tədbirlərdə fəal iştirak edirlər.



Yığıncaqda çıxış edən partiya üzvləri - Cəmilə Əliyeva, Gülnar Hüseynova, Şükufə Kərimova və Zəhra Behbudova hesabat məruzəsinin qənaətbəxş olduğunu bildiriblər. Hesabat məruzəsi səsə qoyularaq qəbul edildikdən sonra təşkilati məsələlər geniş müzakirə olunub. Qərara əsasən, 7 nəfərdən ibarət idarə heyəti, Sehranə Qasımova sədr, Gülnar Hüseynova sədr müavini və YAP Binəqədi rayon təşkilatının IX konfransına isə 1 nəfər nümayəndə seçilib. Yekun nitq ilə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov görüləcək işlərlə bağlı fikirlərini bildirib. Qeyd olunub ki, konfransa hazırlıqla əlaqədar təsdiq olunmuş qrafikə əsasən, ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarının keçirilməsinə və konfransa nümayəndələrin seçilməsinə başlanılıb.

Sonra partiya sıralarına yeni üzv qəbul edilən gəncə üzvlük vəsiqəsi təqdim edilib.

Yığıncaq bədii hissə ilə başa çatıb.

***ZÜMRÜD***

## YAP Nərimanov rayon təşkilatının Dövlət Dəmiryol Liseyi ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib




***Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının X konfransının keçirilməsi ilə bağlı hazırlıq işlərinə başlanılıb. Bu məqsədlə təşkilatın Dövlət Dəmiryol Liseyi ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib.***



Əvvəlcə Dövlət Dəmiryol Liseyinin direktoru Həsən Bayramov yığıncağın gündəliyi haqda məlumat verib. Hesabat məruzəsi ilə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Oruc Həsənov bildirib ki, hesabat dövrü ərzində partiya sıraları kəmiyyət və keyfiyyət cəhətdən, xüsusilə, gənclərin hesabına güclənib. Təşkilatda hazırda qeydiyyatda olan üzvlərin əksəriyyəti gənclərdir və təşkilat üzvləri partiya tərəfindən keçirilən ictimai-siyasi tədbirlərdə fəal iştirak ediblər. Qeyd olunub ki, təşkilatın fəaliyyət planında nəzərdə tutulan bütün məsələlər uğurla həyata keçirilib, bundan sonra da qarşıya qoyulan vəzifələr məsuliyyətlə icra ediləcək.

Yığıncaqda çıxış edən YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev qarşıda duran vəzifələrlə bağlı fikirlərini bildirib: "Konfransa hazırlıqla əlaqədar təsdiq olunmuş qrafikə əsasən, bütün ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarının keçirilməsinə və konfransa nümayəndələrin seçilməsinə başlanılıb". T.Tağıyev, həmçinin, ərazi ilk partiya təşkilatının hesabatını qənaətbəxş hesab edib və yeni seçilən tərkibə uğurlar arzulayıb. Tədbirdə YAP Nərimanov rayon təşkilatının X konfransına 5 nəfər nümayəndə seçilib.

***RƏFİQƏ***

# 20 Yanvar - xalqımızın milli qürur günü

*YAP Xaçmaz rayon təşkilatında elmi-nəzəri konfrans keçirilib*



***Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına İdeoloji Mərkəzdə 20 yanvar hadisələrinə həsr olunmuş elmi-nəzəri konfrans keçirilib.***

Konfransı giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının qadınlar şurasının sədri Sevinc Sədullayeva açaraq konfrans iştirakçılarını 20 Yanvar şəhidlərinin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsini təklif edib. Sonra məktəblilərin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səslənib.



"20 Yanvar-qan yaddaşı" mövzusunda Heydər Əliyev adına İdeoloji Mərkəzin direktoru Cavad Mehmanov məruzə edərək bildirib ki, bu hadisə Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazılıb və bu gün hər bir azərbaycanlı həmin tarixi qürurla xatırlayır.

"20 Yanvar xalqımızın milli qürur günüdür" mövzusunda YAP Xaçmaz rayon gənclər birliyinin fəalı Elvin Məmmədov çıxış edərək, hər bir azərbaycanlı gəncin baş verən hadisələri dərindən öyrənməli olduğunu və sonrakı nəslin nümayəndələrinə çatdırılmasının bir vəzifə borcu olduğunu qeyd edib.

Çıxış edən digər natiqlər - Kəmalə Nağıyeva, Jalə Orucəliyeva və başqaları 20 Yanvar faciəsi haqqında çıxış edərək, faciənin Azərbaycan xalqının başına gətirdiyi müsibətlərdən və tarixi həqiqətlərdən danışıblar.

YAP rayon qadınlar şurasının üzvü Yaqut Məsimova isə 20 Yanvar faciəsinin nəticələri, şəhidlər və əlillərə dövlət tərəfindən göstərilən qayğıdan danışaraq, dövlətin bu istiqamətdə apardığı genişmiqyaslı işlər barədə məruzə edib.

Elmi-nəzəri konfransın sonunda məktəblilər 20 yanvar hadisələrinə həsr edilmiş şeirlər səsləndiriblər.

***Rəfiqə HÜSEYNOVA***

# Şəhidlər unudulmayacaq!

*YAP Masallı rayon təşkilatı və rayonun Gənclər və İdman İdarəsi 20 Yanvar hadisələrinə həsr olunmuş "Kyokuşinkai karate" idman növü üzrə birincilik keçirib*

***Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı və Masallı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr olunmuş "Kyokuşinkai karate" idman növü üzrə uşaqlar, yeniyetmələr və gənclər arasında rayon birinciliyi keçirilib.***





İdman birinciliyindən öncə, idmançılar və azarkeşlər 20 Yanvar şəhidlərinin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər.

Sonra YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev giriş nitqi ilə çıxış edərək bildirib ki, 20 yanvar hadisələrin mahiyyəti etibarilə qəhrəmanlıq salnaməsidir və istər 20 Yanvar, istərsə də torpaqlarımız uğrunda şəhid olan hər bir vətən övladı xalqımızın qəlbində əbədi olaraq yaşadılır, bundan sonra da yaşadılacaq.



S.Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, eləcə də idman sahəsində aparılan uğurlu islahatlar barədə yarış iştirakçılarını məlumatlandırıb.

Birincilik yarışı bir-birindən maraqlı epizodları ilə yadda qalıb. Turnirin yekununda qaliblərə YAP Masallı rayon təşkilatı tərəfindən diplomlar, medallar və qiymətli hədiyyələr verilib.

***R. HÜSEYNOVA***

# YAP Qusar rayon təşkilatında IX hesabat-seçki konfransına hazırlıq işləri görülür



***YAP Qusar rayon təşkilatında IX hesabat-seçki konfransına hazırlıq işləri ilə əlaqədar şura iclası keçirilib.***

Şura iclasında YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək YAP-ın yaranma tarixindən, bütün seçkilərdə partiyanın qazandığı qələbələrdən danışıb, Yeni Azərbaycan Partiyasının Azərbaycanda aparıcı siyasi qüvvəyə malik olduğunu və müstəqil Azərbaycanın əbədiliyini təmin etdiyini bildirib. Qeyd edib ki, YAP Qusar rayon təşkilatı da fəaliyyətə başladığı gündən Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi prinsiplərə əsaslanır, təşkilatın qeydiyyatında duran hər bir partiya üzvü Qusar rayonunda aparılan quruculuq işlərində yaxından iştirak edir.



Daha sonra D.İbramxəlilov ərazi ilk partiya təşkilatlarında hesabat-seçki iclaslarının keçirilməsi və rayon partiya təşkilatının növbəti IX konfransına nümayəndələrin seçilməsi barədə məlumat verib.

Qeyd edək ki, iclasda şura üzvləri ilə yanaşı, rayon ərazi ilk partiya təşkilatlarında iclasların keçirilməsinə məsul şəxslər də iştirak ediblər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Ağdam rayon təşkilatı ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam edir

***Yanvarın 9-dan başlayaraq, YAP Ağdam rayon təşkilatı ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarının keçirilməsinə start verilib. Bu günə qədər artıq 13 ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncaqları keçirilib. Növbəti hesabat-seçki yığıncağı Yeni Azərbaycan Partiyası Ağdam rayon Maliyyə İdarəsi ərazi ilk partiya təşkilatında keçirilib.***

Yığıncağı giriş sözü ilə açan ərazi ilk partiya təşkilatının sədri Rəşad Məhərrəmov hesabat məruzəsi ilə çıxış edərək, təşkilatın fəaliyyəti barəsində geniş məlumat verib: "Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı 1993-cü ildə təsis edilib. Rayon təşkilatı 65 ərazi ilk partiya təşkilatı üzrə 6356 nəfər YAP üzvünü öz sıralarında birləşdirir ki, onların da 2669 nəfərini qadınlar, 1798 nəfərini isə gənclər təşkil edir". O bildirib ki, ölkəmizin hər yerində, eləcə də, rayonumuzda Yeni Azərbaycan Partiyasının nüfuzu günbəgün artır və sıraları genişlənir. Məruzəçi yığıncaq iştirakçılarını əmin edərək bildirib ki, partiyanın bundan sonra da qarşıya qoyulan bütün tapşırıqları daha da məsuliyyətlə icra ediləcək.



Ərazi ilk partiya təşkilatının hesabat dövrü ərzində gördüyü işlər müsbət qiymətləndirilib. Sonra ərazi ilk partiya təşkilatına ilk partiya təşkilat sədri, müavini və Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının X konfransına nümayəndələr seçilib.

***ZÜMRÜD***

***Müstəqillik tariximizin ən mühüm nailiyyətlərindən biri də tarix elmimizin inkişafı sahəsində əldə olunan böyük uğurlardır. Azərbaycan tarixşünaslığını müstəqil inkişaf yoluna Ulu Öndər Heydər Əliyev çıxarmışdır. Dahi şəxsiyyət doğma xalqına, vətən torpağına həsr olunmuş ömrünün bütün çağlarında tariximizin azərbaycançılıq məfkurəsi əsasında doğru-düzgün araşdırılmasını və gənc nəslin doğma vətənə sədaqət ruhunda tərbiyə olunmasını daim diqqət mərkəzində saxlayırdı. Erməni-daşnak quldurlarının xalqımıza qarşı törətdikləri soyqırımları və deportasiyalarla bağlı mühüm dövlət sənədləri imzalayan, XX əsrin 20-30-cu illərində ziyalılarımıza qarşı həyata keçirilmiş repressiyaların ağır nəticələrindən dönə-dönə bəhs edən Ulu Öndər Heydər Əliyev, əslində, tarixçilər qarşısında tarix elmini keçmiş zərərli konsepsiyalardan uzaqlaşdırmaq, saxtalaşdırmalardan və təhriflərdən təmizləmək kimi çox mühüm və şərəfli vəzifə qoymuşdur.***

# Tarixi şəxsiyyətlərimizə sahib çıxaq

Ulu Öndərin tarix elminin inkişafı ilə bağlı bütün ideyalarını, planlarını dönmədən həyata keçirən Prezident İlham Əliyev tarixçi-alimlər qarşısına yeni və daha konkret vəzifələr qoydu. Ölkə başçısının çağırışları, təşəbbüsü və birbaşa tövsiyəsi ilə, ilk dəfə olaraq, "Azərbaycan Tarixi Atlası", mükəmməl tədqiqat əsərləri olan "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", erməni-daşnak quldur rejimləri tərəfindən Azərbaycanın müxtəlif bölgələrində həyata keçirilmiş soyqırımları barədə ayrı-ayrılıqda çoxsaylı kitablar nəşr olundu. Stepan Şaumyanın başçılıq etdiyi "26 Bakı komissarları" adlanan daşnak-bolşevik güruhunun soyqırımı cinayətləri sübuta yetirildi. Ölkə başçısının birbaşa tapşırığı ilə yazılmış fundamental elmi- tədqiqat əsəri olan "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabı, həmçinin, "Real tarix və "Böyük Ermənistan uydurması" tədqiqatı və digər çoxsaylı əsərlər rus, ingilis, italyan, ispan, ərəb və başqa dillərə tərcümə olunaraq, dünyada yayıldı. Bununla ermənilərin guya Cənubi Qafqazın "ən qədim əhalisi olması" barədə saxta və uydurma "konsepsiyaya" sarsıdıcı zərbə vuruldu. Dünyanın mühüm elm mərkəzlərində, arxivlərində saxlanılan tariximizlə bağlı külli miqdarda arxiv sənədləri ölkəmizə gətirildi.

Tarixçilərimiz ilk mənbələrə, o cümlədən, zəngin arxiv sənədlərinə əsaslanaraq, vətənimizin saxtalaşdırılmalardan, təhriflərdən təmizlənmiş yeni tarixini yazırlar. Beş kitabdan ibarət olan ikicildlik "Azərbaycan Respublikasının tarixi (1991-2016)" fundamental araşdırması isə artıq işıq üzü görmüşdür.

Ölkə başçısı tarix elminin inkişafını daim diqqət mərkəzində saxlayır, tarixçilərin əməyinə yüksək qiymət verir. Milli Elmlər Akademiyasının Tarix İnstitutu Prezidentin çağırışlarını, tapşırıq və tövsiyələrini yerinə yetirmək üçün var qüvvəsi ilə çalışır, alimlərimiz xalqımızın şanlı tarixini düzgün və dolğun əks etdirən əsərlər yazırlar. Cəsarətlə demək olar ki, artıq Azərbaycan tarix elmi müstəqil inkişaf yoluna çıxmışdır.

Müstəqil Azərbaycanın bütün sahələrdəki nailiyyətləri kimi tarix elminin inkişafında əldə olunmuş böyük uğurlar da bədxahlarımız tərəfindən (eyni zamanda, daxili dönüklər tərəfindən!) birmənalı qarşılanmır. Tarix elmimiz "ənənəvi" konsepsiyalardan uzaqlaşdıqca, saxtalaşdırmalardan və təhriflərdən təmizləndikcə, Milli Elmlər Akademiyasının Tarix İnstitutu bundan narahat olan xarici qüvvələrin, xüsusilə, erməni saxtakarlarının kəskin hücumlarına məruz qalır. Vaxtaşırı işğalçı ölkənin paytaxtında keçirilən "elmi" toplantılarda qaraqışqırıq salanlar Tarix İnstitutunun uğurlarını iftira və böhtan "atəşinə" tuturlar. Əlbəttə, biz bundan böyük qürur duyuruq! Çünki doğru yoldayıq! Deməli, hədəfləri düz seçmişik!



*Yaqub Mahmudov, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı*

Nə qədər təəccüblü olsa da, ölkəmizin daxilində də xaricdəki bədxahlarımızla səs-səsə verənlərə ara-sıra rast gəlinir.

Müasir mərhələdə müstəqil Azərbaycanın tarix elmi bədxahlarımıza qarşı başlıca olaraq üç istiqamətdə mübarizə aparır: dövlətçilik tariximizin təhrif olunmasına qarşı; xalqımızın yaratdığı qədim və zəngin mədəniyyətə sahib çıxmağa çalışanlara qarşı; görkəmli tarixi şəxsiyyətlərimizə qarayaxanlara qarşı.

Gizli deyil ki, 1918-ci ilədək Cənubi Qafqazda dövlətçilik tarixi olmayan və bu regiona Çar Rusiyası tərəfindən köçürülüb gətirilmiş ermənilər, habelə, uzun tarixi dövrlər ərzində böyük Azərbaycan imperiyalarının tərkibində olmuş digər ölkələrin bəzi "alimləri" ya kağız üzərində özlərinə "dövlət yaratmağa" çalışır, ya da Azərbaycanın qədim dövlətçilik mədəniyyətinin tarixini təhrif etmək üçün hər cür saxtakarlığa əl atırlar. Bu iyrənc məqsədə xidmət edənlər ən adi mənəviyyat və əxlaq normalarını belə pozaraq, Azərbaycan xalqına məxsus olan mədəniyyət abidələrinə, nadir sənətkarlıq nümunələrinə, xalqımızın mətbəx mədəniyyətinə də sahib çıxmağa və özlərinə oğurluq mədəniyyət yaratmağa cəhd göstərirlər.

Son zamanlar müxtəlif informasiya vasitələrində Azərbaycan xalqının dünyaya bəxş etdiyi nadir tarixi şəxsiyyətlərə hücumlar da kütləvi xarakter almışdır. Məqsəd aydındır: yenidən öz müstəqilliyinə qovuşmuş xalqımızın özünün minillər boyu davam etmiş dövlətçilik tarixinə, qədim və zəngin mədəniyyətinə, qüdrətli tarixi şəxsiyyətlərinə sahib çıxmasına əngəl törətmək, Azərbaycan gəncliyinin, bütövlükdə, xalqımızın işğalçılara, anti-azərbaycan qüvvələrinə qarşı mübarizə ruhunu güclənməyə qoymamaq!

Bu, bir həqiqətdir ki, hər bir xalq, onun milli-mənəvi varlığı doğma elinə, torpağına bağlı olan tarixi şəxsiyyətlərin fəaliyyəti və mübarizəsi sayəsində yaşayır, qeyri-millətlər içərisində əriyib yox olmaq təhlükəsindən qurtulur. Məhz qüdrətli şəxsiyyətlər sayəsində xalq həm də tarixin yaddaşında qalır.

Qədim dövlətçilik mədəniyyətinə malik olan Azərbaycan xalqı üçün böyük qürur mənbəyidir ki, o dünyaya olduqca görkəmli tarixi şəxsiyyətlər bəxş etmişdir.

Müstəqil respublikamızın ərazisinin 20 faizinin təcavüzkar Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu bir dövrdə, informasiya müharibəsinin gedişində beynəlxalq aləmdə, əsasən də, vikipediya və digər müxtəlif internet resurslarında ölkəmizə qarşı informasiya hücumları, qarayaxmalar, böhtan və iftira kampaniyaları daha da genişlənməkdədir. Əsas məqsəd tariximizə qara yaxmaq, tarixi şəxsiyyətlərimizi ləkələmək, ermənilərin guya Cənubi Qafqazın "aborigen əhalisi", yəni "ən qədim sakinləri" olması barədə saxta konsepsiya ilə bağlı uydurma "elmi" fikirləri dünya ictimaiyyətinin beyninə yeritməkdən ibarətdir.

Çox təəssüf ki, ölkəmizin daxilində də xalqın yaddaşında yüz illər ərzində özünə layiqli yer tutmuş görkəmli dövlət xadimlərinə və digər tarixi şəxsiyyətlərə, o cümlədən, Babək, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Şah İsmayıl Səfəvi, Şah Təhmasib Səfəvi, Şah Abbas Səfəvi, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar və digər tarixi şəxsiyyətlərə qarşı saxta, elmdən uzaq, sağlam məntiqdən kənar fikirlərlə, qarayaxmalarla çıxış edənlər də tapılır.

Azərbaycan xalqının milli qüruru olan və millətimizə bütün dünyada başucalığı gətirən nadir tarixi şəxsiyyətlərimizin, hətta dahi Füzulilərin, Üzeyir bəylərin, görkəmli dövlət və siyasi xadimlərimizin, sərkərdələrimizin, xalq qəhrəmanlarımızın yaxın keçmişdə televiziya ekranlarında "dahilərin divanı" kimi üzdəniraq verilişlərdə "tənqid" və lağ hədəfinə çevrilməsi yadımızdan çıxmayıb!

Təəccüblü deyilmi, bir tərəfdən torpaqlarımıza yiyələnməyə çalışan işğalçı dövlətin nümayəndələri bizim dahilərimizə sahib çıxmaq üçün guya onların "erməni mənşəli" olduğunu sübut etməkdən ötrü dəridən-qabıqdan çıxırlar, digər tərəfdən isə bizim içərimizdəki bəzi dönüklər bir çox dahi şəxsiyyətlərimizin "mənşəcə azərbaycanlı olmadıqlarını" sübuta yetirmək üçün əllərindən gələni edirlər, necə deyərlər, özlərini oda-közə vurmaqdan belə çəkinmirlər. İstər-istəməz düşünməli olursan: bu iki şər qüvvə eyni məqsədə xidmət etmirmi?!

Nə qədər acı olsa da, Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizəsinə 20 ildən artıq bir dövr ərzində rəhbərlik etmiş və böyük bir imperiyanın - Ərəb Xilafətinin ordularını dəfələrlə ağır məğlubiyyətlərə uğratmış ölməz xalq qəhrəmanımız Babəkin şəxsiyyətini müzakirəyə çıxaranlar, onun soykökünün axtarılmasına, daha doğrusu, azərbaycanlı olmadığını sübut etməyə cəhd göstərənlər də var. Belələri düşünmürlər ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir. Başqa xalqlar kimi, onun da formalaşmasında müxtəlif türk etnosları, habelə, digər etnoslar iştirak ediblər. Xalqımızın yaranışı tarixin ən qədim qatlarından başlayıb və erkən orta əsrlərdə başa çatıb. Buna görə də, üstündən yüzillər keçdikdən sonra formalaşmış vahid adı, dili, dövləti, mədəniyyəti olan bir xalqı yenidən "sortlara ayırıb" onun qəhrəmanlarını ümum-Azərbaycan gövdəsindən qopararaq, ayrı-ayrı etnoslara aid etmək düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil!

Belələri, həm də unudurlar ki, xalq öz kökünü, tarixini hamıdan yaxşı bilir, dost-düşmənini də, qəhrəmanlarını da hamıdan yaxşı tanıyır. Məhz ümumxalq sevgisinin nəticəsidir ki, bu gün 60 milyonluq Azərbaycan xalqı öz ailələrində yüzlərlə babəklər və cavanşirlər tərbiyə edir!

Təəssüf ki, tarixi şəxsiyyətlərimizə sayğısız, laqeyd münasibət, hətta onları özgəninkiləşdirmək meyilləri səngimək bilmir. Hətta bəzi televiziya kanallarının hazırladığı verilişlərdə də Şah İsmayıl, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar kimi görkəmli şəxsiyyətlərimizi Azərbaycandan qoparmaq cəhdi açıq-aşkar nəzərə çarpır.

Bu gün təcavüzkar Ermənistanın işğalçılıq siyasətinə qarşı informasiya müharibəsində fəal iştirak edən Tarix İnstitutu ölkə başçısının çağırışları, tapşırıq və tövsiyələri ilə mükəmməl elmi araşdırmalar ortaya qoymaqla yanaşı, həm də yeniyetmələr arasında "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsini həyata keçirir. Bu layihə çərçivəsində Bakı şəhərinin müxtəlif orta məktəbləri, təhsil kompleksləri və liseylərində, Şəki şəhərindəki 10 nömrəli orta məktəbdə "Heydər Əliyev", "Şah İsmayıl Səfəvi", "Şah Təhmasib Səfəvi", "Şah Abbas Səfəvi", "Nadir şah Əfşar", "Ağa Məhəmməd şah Qacar", "Vətən qeyrətli qadın hökmdarımız - Tomiris", "Hacı Çələbi xan" mövzularında elmi-praktik konfranslar keçirilmişdir. Orta məktəb şagirdlərinin çox fəal iştirak etdiyi bu konfransların gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolu əvəzsizdir.

Yuxarıda göstərilən elmi-praktik konfransların gedişində çox qabarıq nəzərə çarpan sevindirici bir hal da bundan ibarətdir ki, gənc nəsil, onlara təhsil və tərbiyə verən tarix müəllimləri tarixi şəxsiyyətlərimizi yaxşı tanıyır, onların fəaliyyətini yeniyetmələrimizə doğru-düzgün öyrədirlər. Bu da səbəbsiz deyil. Çünki müstəqillik dövründə yeni - azad Azərbaycanın təhsil sistemi üçün yeni tarix dərslikləri yaradılmışdır. Təhsil Nazirliyinin çox ciddi şərtlər çərçivəsində həyata keçirdiyi müsabiqələr sayəsində ərsəyə gələn tarix dərslikləri bu gün xalqımızın çox qısa zaman kəsiyində əldə etdiyi böyük nailiyyətdir.

***Ardı Səh. 13***

# Tarixi şəxsiyyətlərimizə sahib çıxaq

Əvvəli Səh. 12

Bütün bunlarla yanaşı, ciddi narahatlıq doğuran haldır ki, hələ də sovet dövrünün zərərli və zəhərli konsepsiyalarının təsirindən yaxa qurtara bilməyən, tariximizin bir çox problemlərindən baş açmayan bəziləri Azərbaycanın oğuz-türk mənşəli Şah İsmayıl Səfəvi, Şah Təhmasib Səfəvi, Şah Abbas Səfəvi, Nadir Şah Əfşar, Ağa Məhəmməd şah Qacar kimi böyük tarixi şəxsiyyətlərini, onların yaratdıqları qüdrətli imperiyaları başqalarına aid edirlər, "ən yaxşı halda" isə Azərbaycana aid etmirlər. Bu böyük sərkərdələri Azərbaycanla, xüsusilə Şimali Azərbaycanla bağlı olaraq, "işğalçı" kimi qələmə verirlər. Doğma dildə ana südü qədər dadlı və təmiz şeirlər yazan, divan bağlayan, Azərbaycan türkcəsini böyük Səfəvi imperiyasının dövlət dili səviyyəsinə yüksəldən, öz xalqı üçün vahid mərkəzləşdirilmiş dövlət yaradan Şah İsmayıl Səfəvinin bunca tarixi xidmətlərini bir tərəfə ataraq, onu "islam dinini və türk dünyasını parçalamaqda" gü-



nahlandıranlar isə, "daha dərinə gedərək" xalqı öz şanlı tarixindən, nadir şəxsiyyətlərindən məhrum etmək qədər zərərli addım atırlar. Bu cür təşəbbüslərlə çıxış edənlər, həm də unudurlar ki, tarix elmində islam dininin nə vaxt və harada məzhəblərə parçalanması tarixi də yaxşı məlumdur, türk dünyasının parçalanması səbəbləri də, onu parçalayan qüvvələr də!

Kimin və ya kimlərinsə necə yozmasından asılı olmayaraq, tarixi reallığı ört-basdır etmək olmaz. Çünki o, həqiqətdir. Həqiqətin isə ancaq bir adı var: həqiqət! İskəndər, Atilla, Çingiz xan, Böyük Karl, Şəmsəddin Eldəniz, Alp Arslan, Əmir Teymur, Uzun Həsən, Fateh Sultan Mehmet, Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas, Pyotr, Nadir Şah, Napoleon Bonapart kimi tarixi şəxsiyyətlər öz xalqlarına misilsiz xidmətlər göstərməklə yanaşı, qüdrətli imperiyalar yaratmış, işğallar həyata keçirmiş, dünya tarixində dərin iz qoymuşlar. Bəs nədən və nə üçün İskəndərin, Böyük Karlın, Fateh Sultan Mehmetin, Əmir Teymurun, Pyotrun, Napoleon Bonapartın və onlarla başqa tarixi şəxsiyyətlərin mənsub olduğu xalqlar öz şəxsiyyətlərinə, bu şəxsiyyətlərin yaratdıqları imperiyalara sahib çıxdıqları halda, biz Şəmsəddin Eldənizdən, Uzun Həsəndən, Şah İsmayıldan, Şah Təhmasibdən, Şah Abbasdan, Nadir Şahdan, Ağa Məhəmməd Şah Qacardan və digər onlarla qüdrətli şəxsiyyətlərimizdən üz döndərməli və onların yaratdıqları imperiyaların tarixindən imtina etməliyik?! Və ya onları başqalarına "bağışlamalıyıq"?! Səfəvi-qızılbaş türkləri, Əfşarlar, Qacarlar bizim kökümüzdə duran türk elatları, daha doğrusu, bizim özümüz deyilikmi? Necə olur, biz xalq qəhrəmanımız Cavad xan Ziyadoğlu ilə qürurlanırıq, yadellilərə qarşı qəhrəmancasına duruş gətirən İrəvan xanları olan Qacarlarla fəxr edirik, amma Ağa Məhəmməd Şah Qacarı özümüzdən hesab etmirik - "yadelli işğalçı" adlandırırıq?!

Daha ağrılı, daha dərin təəssüf doğuran hal budur ki, bəzən dünyanın hər yerində, çox görkəmli tədqiqatçıların olduqca yüksək qiymət verdiyi Nadir şah Əfşar kimi dahi tarixi şəxsiyyətlərimizi də öz içərimizdə özümüz ləkələyirik! Belə addımı ixtisası tarixçi olan alimlər atdıqda lap mat qalırsan (Məsələn, bax: Əsədov F. Nadir şah Əfşar. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2011). İnana bilmirsən ki, çökmüş Səfəvi imperiyasını yenidən dirçəldən, həmin imperiyanı öz aralarında bölüşdürmüş Çar Rusiyası və Osmanlı hərbi qüvvələrini, Şərqdən hücum etmiş əfqan müdaxiləçilərini qovub ölkədən çıxaran, yeni Azərbaycan Əfşarlar imperiyası kimi geniş ərazili bir dövlət yaradan, Hindistanı öz imperiyasından asılı hala salan, misilsiz sərkərdəlik istedadı ilə tarixi inkişafın gedişini öz ölkəsinin xeyrinə dəyişdirə bilən, mənsub olduğu xalqın ağır faciəsi olan məzhəb ayrılığını ləğv etməyə çalışan, həyata keçirdiyi inzibati ərazi islahatı ilə bütün tarixi Azərbaycan torpaqlarını bir vilayətdə birləşdirən və dünyada "Şərqin Napoleonu" kimi məşhur olan dahi sərkərdəni dünyanın heç bir tarixçisi aşağılamadığı halda, tarix üzrə fəlsəfə doktoru olan bir azərbaycanlı alim onu "quldurluqla məşğul olan vücud" adlandırır, "quldurluğu özünə peşə seçməkdə", "quldurluq peşəsi ilə ad qazanmaqda", "özünəməxsus quldur dəstəsi olmaqda" təqsirləndirir, hətta heç bir əsas olmadan, böyük sərkərdəni "ermənilərin dostu" kimi qələmə verir. Çox təəssüf, lap çox təəssüf!

Nadir şah kimi dahilər barədə yazı yazmaq üçün əlinə qələm alanlar unutmamalıdırlar ki, bu cür şəxsiyyətlərə gördükləri böyük işlərə görə qiymət verilir. Məgər İskəndər, Böyük Karl, Pyotr, Napoleon, Bismark və başqaları öz məqsədlərinə qan tökmədən nail olmuşdular?!



Əgər kasıb, zəhmətkeş bir Əfşar ailəsindən çıxmış igid-dəliqanlı öz hərbi sərkərdəlik istedadına, göstərdiyi qəhrəmanlıqlara görə böyük Səfəvi imperiyasının hərbi qüvvələrinin başçısı səviyyəsinə yüksələ bilmişsə, son Səfəvi hökmdarlarının maymaqlığı ucbatından ölkə dövlət müstəqilliyini itirdiyi zaman bütün xarici qüvvələri məğlub edib çökmüş imperiyanın yerində yeni Azərbaycan - Əfşarlar imperiyası yarada bilmişsə, hətta Hindistan kimi böyük ölkəni də öz dövlətindən asılı hala salmağa nail olmuşsa, biz nə üçün belə şəxsiyyətin və onun kimi dahilərin fəaliyyətində qüsurlar axtarışına çıxmalıyıq?!

Bəli, Nadir Şah sərt bir mühitin övladı idi. Yeniyetmə ikən atasını, sonra da anasını itirmiş, bütün ailəni dolandırmaq yükü onun boynuna düşmüş, hər cür məhrumiyyət görmüşdü. Tayfasının düşmənlərindən qisas almaq üçün başına dəliqanlılar toplamış, döyüşlərdə göstərdiyi şəxsi igidliyə görə ad-san qazanmışdı. Belə istedadlı sərkərdələrə möhtac olan Səfəvi şahları da onu xarici müdaxiləçiləri dəf etmək üçün köməyə çağırmış, imperiya ordusunun taleyini bu igid sərkərdəyə tapşırmışdılar. Bu cür başlanmışdı böyük sərkərdənin həyat yolu!

Bəli, Nadir şah satqınları, xainləri, dedi-qoduçuları, çuğulları, qorxaqları, saray hiyləgərlərini sevmirdi və onlara layiq olduqları cəzanı verirdi! Lakin dara çəkmək üçün çağırtdırdığı Şəki hakimi Hacı Çələbi kimi sözü qorxmadan üzə deyə bilən cəsurların isə boynundan ipi çıxartdırıb, azad edirdi!

Bu da tarixi həqiqətdir ki, Nadir şah Əfşar son səfəvilərdən fərqli olaraq, başçılıq etdiyi imperiyanın torpaq itirməsinə yol vermirdi, ən ağır döyüşlərdə şəxsi igidlik göstərərək azad etdiyi torpaqlarda mərkəzi hakimiyyətə qarşı qiyamlar qalxarkən amansız olurdu, dövlətin sərhədlərinin pozulmasına imkan vermirdi.

Unutmaq olmaz ki, məhz Nadir şah dövründə xalqımızın düşmənləri nə Azərbaycan torpaqlarına, nə də onun yaratdığı böyük Əfşar imperiyasına hücum etməyə cəsarət göstərə bildilər! Lakin onun ölümündən sonra tarixi inkişafın gedişi dəyişdi və Azərbaycan torpaqları bölüşdürüldü...

Ölkə başçısının mütəmadi qayğısı sayəsində Milli Elmlər Akademiyasının Tarix İnstitutunda görkəmli tarixi şəxsiyyətlərimizin nəsillərə örnək olan fəaliyyətlərinin araşdırılmasına xüsusi diqqət yetirilir, dissertasiyalar yazılır, monoqrafiyalar, sənəd topluları nəşr olunur.

İnstitutda tarixdə mövcud olmuş böyük imperiyalarımız, qüdrətli tarixi şəxsiyyətlərimizin fəaliyyətləri barədə geniş tədqiqat işləri aparılmış, ciddi elmi uğurlar qazanılmışdır. Müasir mərhələdə dünyanın ən güclü səfəvişünaslıq məktəbi məhz Azərbaycanda - Milli Elmlər Akademiyasının Tarix İnstitutundadır.

Azərbaycanın müxtəlif dövrlərdə itirdiyi torpaqların tarixinin araşdırılması ilə məşğul olan son dərəcə gərəkli bir elmi məktəbin formalaşması son illərin ən böyük elmi nailiyyətlərindən biridir. Bu



baxımdan, Milli Elmlər Akademiyasının həqiqi üzvü, görkəmli alim Ramiz Mehdiyevin Mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayıl Səfəviyə və dahi Azərbaycan sərkərdəsi Nadir şaha həsr etdiyi tədqiqatlar ("Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi". "Azərbaycan" qəzeti, 4 dekabr, 2012; "Şah İsmayıl Səfəvi: Döyüşçü və hökmdarın portreti". Bakı, "Şərq-Qərb", 2014; "Nadir şah Əfşar: diplomatik yazışmalar". (Ön sözün müəllifi akademik Ramiz Mehdiyev) Bakı, "Şərq-Qərb", 2015) xüsusi əhəmiyyətə malikdir. Alimin hər iki tarixi şəxsiyyət barədə ilk mənbələrə əsaslanan elmi nəticələri, apardığı ümumiləşdirmələr həm bu sahədə tədqiqat aparan alimlər üçün, həm də maraqlanan ziyalılardan ötrü istiqamətverici əhəmiyyətə malikdir. Akademik Ramiz Mehdiyev Şah İsmayıla həsr etdiyi "Şah İsmayıl Səfəvi: Döyüşçü və hökmdarın portreti" əsərində yazır: "Həqiqi alimlər, nüfuzlu tarixçilər üçün Şah İsmayıl böyük dövlət xadimi və istedadlı sərkərdə olaraq qalır. Azərbaycanlıların şüurunda isə Şah İsmayıl Azərbaycan torpaqlarını birləşdirmiş, mərkəzləşdirilmiş Azərbaycan dövlətini yaratmış şəxsiyyətdir" (s.32). Alimin Nadir şaha həsr edilmiş sənədlər toplusuna yazdığı geniş həcmli "Ön söz"də isə oxuyuruq: "Nadir şah Əfşar (1688-1747) nəinki Azərbaycanın və İranın, həm də bütün müsəlman Şərqinin tarixində silinməz iz qoymuş böyük fateh, görkəmli dövlət xadimi, mahir sərkərdədir. Təsadüfi deyil ki, Avropanın ən tanınmış şərqşünasları "Şərqin Napoleonu" adlandırdıqları Nadir şahın adını Makedoniyalı İskəndərlə, Yuli Sezarla, Böyük Fridrixlə yanaşı çəkirlər. İftixar hissi ilə qeyd edə bilərik ki, Qərbdə xalqımızın ən böyük oğlunun şəxsiyyətinə, siyasi fəaliyyətinə və hərbi dühasına maraq belə onun sağlığında yaranmışdı... XVIII əsrin 20-ci illərində Azərbaycan Səfəvilər dövlətinin süquta uğradığı, ölkə torpaqlarının bir qisminin çar Rusiyası, digər qisminin isə Osmanlı dövləti və əfqan tayfaları tərəfindən istila edildiyi ağır, ümidsiz dövrdə siyasi səhnəyə çıxan və yaranmış faciəli mənzərəni cəmi 10 il ərzində aradan qaldıraraq, dövrünün ən qüdrətli imperiyasını qurmağa müvəffəq olan Nadir şah Əfşar tariximizin bu qəbildən parlaq simaları sırasındadır" (Nadir şah Əfşar: diplomatik yazışmalar..., Titul vərəqi; s.6-7).

Fikrimizcə, alimin hər iki tarixi şəxsiyyətə verdiyi bu qiymət ilk mənbələrin təkzibolunmaz məlumatlarına əsaslanmaqla yanaşı, həm də Heydər Əliyevin bizə əmanət etdiyi azərbaycançılıq məfkurəsinə sədaqət örnəyidir.

Unutmaq lazım deyil ki, tarix yalnız dahi şəxsiyyətlərin gördükləri böyük işlər, onların həyata keçirdiyi islahatlar və nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Səfəvi, Şah Təhmasib Səfəvi, Şah Abbas Səfəvi, Nadir şah Əfşar kimi qüdrətli şəxsiyyətlər bəxş etmişdir.

Əsrlər keçdikdən sonra - XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.

Yazdığımız hər bir əsərdə, söylədiyimiz hər bir fikirdə azərbaycançılıq ruhunu uca tutaraq qüdrətli tarixi şəxsiyyətlərimizi xalqımıza olduğu kimi təqdim etmək, tarixi keçmişimizə sahib çıxmaq Azərbaycan ziyalısı olaraq hər birimizin müqəddəs borcudur.

TƏRS BAXIŞ

# Müsavat-AXCP qarşıdurması bu dəfə yeni mərhələdə

*2018-ci ilə "hazırlıq" partiyalararası gərgin münasibətləri daha da qızışdırdı*

***Ənənəvi müxalifət düşərgəsində iki "ana müxalifət" iddiası ilə çıxış edən partiyalar - Müsavat və AXCP arasındakı gərginliklər başa çatmamış, qarşıdurmalara səbəb olacaq növbəti faktor bu amili yeni mərhələyə daşıyıb. Belə ki, artıq 2018-ci ildə keçiriləcək prezident seçkilərinə "hazırlıqla" bağlı ortaya qoyulan iddialar partiyalararası gərginliyin bundan sonra, ümumiyyətlə, normallaşmayacağına verilən ən bariz nümunədir.***

## Artıq həm Müsavat, həm də AXCP yenidən öz mövqelərini tutaraq, didişmələrə hazırlıq görürlər

Yeri gəlmişkən, bu günlərdə AXCP daxilində "Azadlıq" qəzetinə ayrılmış məbləğlə bağlı Qənimət Zahidlə yaşanan məlum gərginlikdən sonra sədr Əli Kərimlinin ehtiyat planını işə salması və sosial şəbəkədə "2018-ci ilə hazırlıq"la bağlı işlərə başlaması elanını verməsi, əlbəttə ki, əbəs deyil. Çünki son günlər sosial şəbəkədə Müsavat tərəfdarları da fəallaşmağa başlayaraq, 2017-ci ilin Müsavatın ili olduğunu iddia edirlər. Düzdür, bu iddialara inananlar olmasa da, söhbət ondan gedir ki, artıq həm Müsavat, həm də AXCP yenidən əski səngərlərinə qayıdaraq, didişmələrə hazırlıq görürlər. Əbəs yerə deyil ki, müsavatçı funksioner Razim Əmiraslanlı yuxarıda qeyd edilən şüarı feysbuk sosial şəbəkəsində yerləşdirdikdən sonra, müsavatçılarla yanaşı, cəbhəçilər də öz statuslarını yazmağa başladılar.




## Müsavatçı Razim Əmiraslanlının başlatdığı kampaniyanın ağır nəticələri...

Xüsusilə, Ə.Kərimlinin adamları R.Əmiraslanlının iddialı şüarını məsxərəyə qoyur, müsavatçıların utopiyaya qapıldıqlarını bildirirlər. Söz savaşları isə kifayət qədərdir və artıq tərəflər arasındakı məsələ təhqir etmək müstəvisinə qədər inkişaf edib və beləliklə, bir daha aydın olur ki, AXCP və Müsavat partiyaları arasında qarşıdurmalar əbədi olaraq davam edir. 1992-ci ildən başlayaraq AXCP-Müsavat arasında, gözə görünməsə də, bəzi hallarda daha kəskin xarakter alan qarşıdurma mövcuddur. Bu mövcudluq hazırkı dövrə qədər gəlib-çatıb. Bunu inkar etməyə isə, ümumiyyətlə, heç bir sübut yoxdur.

Bu gün AXCP-nin əbədi və əzəli "mehriban düşməni" olan Müsavat partiyası ilə də münasibətlərinin son həddədək pisləşməsi, yəni seçkilər ərəfəsində köhnə məsələlərin qabardılması, bir daha bütün kartları açıq edir. Onu da qeyd edək ki, "Milli Şura"dakı "müttəfiqlikdən" öncə, onlarla birliklərdə təmsil olunan hər iki partiya lideri son anda azğın düşmənlərə çevrilərək, bir-birilərinin siyasətlərini həzm etməyiblər. Məsələn, hələ 2000-ci il parlament seçkilərində Müsavat partiyasının başqanı İsa Qəmbər mərhum Elçibəyin xeyrinə geri çəkilməyərək, öz namizədliyini irəli sürmüşdü. O, həmin vaxtlar mətbuata müsahibəsində qeyd etmişdi ki, əgər Ə.Kərimli öz partiya liderinə "bitmiş siyasətçi" damğasını vurursa, nəyə görə də Müsavat partiyası öz siyasi ambisiyasını irəli sürməməlidir.

## Arif Hacılı Əli Kərimlidən

## Əbülfəz Elçibəyin qisasını almağa hazırlaşır?

Bu gün eyni məsələ təkrar olunur. Müsavatın saxtakarlıq yolu ilə seçilmiş başqanı Arif Hacılı eyni ifadələrlə Ə.Kərimlini "vurmağa" səy göstərir. Məsələn, o öz çevrəsinə deyib ki, Ə.Kərimli vaxtilə lideri Əbülfəz Elçibəyə xəyanət etdi, onu devirərək, AXCP-ni ələ aldı. Müsavatda isə pis-yaxşı başqan dəyişikliyi oldu və bu seçkilər yolu ilə reallaşdırıldı. Yəni A.Hacılı demək istəyir ki, İ.Qəmbərin başqanlıqdan getməsi Elçibəyin AXCP sədrliyindən qeyri-formal şəkildə uzaqlaşdırılması ilə bənzər deyil. Ona görə də, o, həm də keçmiş elçibəyçi kimi mərhum liderinin qisasını Kərimlidən almaq niyyətindədir. Yəni Hacılı sabiq başqan İ.Qəmbərin namizədliyinə dəstək qazandırmaqdan ötrü bir çox faktları açacağını deyir. Necə deyərlər, məsələ bu qədər bəsitdir...

## Kəskin savaşın baş qaldırması an məsələsinə çevrilib

2018-ci ildə keçiriləcək prezident seçkilərinə qədər isə gəlin AXCP və Müsavat qarşıdurmalarının son qarşıdurma illərinə nəzər salaq: 2003-cü ilin prezident seçkilərində qısa müttəfiqlik edən hər iki siyasi təşkilat arasında növbəti qalmaqal yaşandı. Belə ki, Müxalifətin Koordinasiya Mərkəzi adlı qurumda İ.Qəmbəri müdafiə edəcəyini bəyan edən Ə.Kərimli son anda AMİP rəhbəri Etibar Məmmədovu dəstəkləmişdi.

2005-ci ilin parlament seçkilərində boykot taktikasını tutan Ə.Kərimli bununla Müsavata qarşı "öldürücü" zərbə vurmuş oldu. Nəticədə, bir daha sübut olundu ki, ümumiyyətlə, nə AXCP, nə də ki, Müsavat partiyası heç vaxt hər hansı adda olan siyasi qurumda bir araya, yekdil fikrə gələ bilməyəcək.

Beləcə, 2013-cü ilin "Milli Şura" olaylarına qədər hadisələr davam etdi. İndi isə növbəti və daha kəskin savaşın baş qaldırması an məsələsinə çevrilib.

Lakin onu da xatırladaq ki, "Milli Şura"dan öncə, artıq fəaliyyətinə xitam verilmiş "İctimai Palata"da da bu kimi halların yaşanması davamlı olub. Müsavatçıların AXCP sədri Ə.Kərimliyə qarşı antipatik hissləri "palata"nın parçalanması və dağılması ilə müşahidə olunmuşdu.

## Fiasko tendensiyasının reallaşması

Göründüyü kimi, yarandığı gündən yalnız aşırı radikal düşərgənin inhisarı uğrunda mübarizə ilə yadda qalan, şəxsi maraqların vasitəçisinə çevrilən fikir ayrılığı artıq tam aydınlığa qovuşduğu üçün keçmiş "müttəfiqlər" bu cür açıq savaşa başlamaq məcburiyyətindədirlər. Çünki hansısa əməkdaşlıq nağılı artıq partiya üzvlərinə belə inandırıcı görünmür. Mübarizə o qədər açıq müstəvidə gedir ki, A.Hacılı ilə Ə.Kərimlinin bir-birilərinə qarşı apardıqları kampaniya sıravi partiya üzvləri tərəfindən də, hiss edilir ki, özünü sosial şəbəkələrdə tam çılpaqlığı ilə sərgiləməkdədir.

Beləliklə, yenidən başladılan əks-təbliğat kampaniyası isə növbəti mərhələyə keçid alıb. Bu kimi davamiyyət isə ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verəcək.

***Rövşən NURƏDDİNOĞLU***



SAMİR

# Ağ Ev, yoxsa gözəllik salonu?

***Okeanın o tayında olasan, ancaq bu tayını da o tayına "dola"yasan, bax, bu, əsl istedaddır! Hazırda bütün Amerika xalqı inaqurasiya zamanı Donald Trampın arvadı Melaninin səhnəyə necə çıxacağını, hansı paltarları geyinəcəyini, saç düzümünün necə olacağını, böyük səbirsizliklə gözləyir. Hətta bunun üçün Ağ Evdə indidən xüsusi otaqlar hazırlanıb, təkcə bir otaq onun kosmetik vasitələri üçün seçilib və hazırlıq işləri aparılır. Bunlar özlərini elə aparırlar ki, sanki böyük bir parovozu bəzəyib-düzəyəcəklər.***

ABŞ demokratiyasından bəh-bəhlə danışan, prezidentin bizneslə məşğul olmasının yolverilməz olduğunu illərdir ki, bəyan edən Cəmil Həsənli və Əli Kərimli, görəsən, bu haqda nə düşünürlər? Məsələn, bizimkilər deyirlər ki, prezidentin bizneslə məşğul olması qadağandır, Tramp isə biznesmendir! Prezident olduğuna görə, biznesini satası da deyil. Prezidentlikdən əvvəl biznesmen olduğunu deyirsinizsə, o zaman onun hansı pulla ABŞ prezidenti olduğunu da izah edin. C.Həsənli seçki zamanı namizədlərin deklorasiyasını tələb edirdi. Bu qoca "şura"çı görəsən, Trampın deklorasiyasını oxuyubmu? Oxumayıbsa, ancaq mən oxumuşam. Minlərlə mal-mülk, milyardlar, böyük biznes şəbəkələri və sairə... Budur dediyiniz ABŞ demokratiyası? C.Həsənli tarixçidir, ancaq yaxşı olar ki, D.Eyzenhauerin ( ABŞ-ın 34-cü prezidenti, 1953-1961) kitablarını da mütaliə eləsin və bir ABŞ prezidentinin etiraflarının şahidi olsun. O yazır: "ABŞ-da pullu, iri sərmayəçi və kapitalist dostları olan istənilən şəxs prezident seçilə bilər...( 1956-ci il, prezidentlik institutu)". Amerikalıların özlərinin etiraf etdiklərini sizlər niyə etiraf etmirsiniz. Bir neçə ay bundan əvvəl ABŞ rəsmiləri özləri bəyan etdilər ki, bəli, ABŞ-da, həqiqətən də canlı efir zamanı 2 jurnalist qətlə yetirilib. Ancaq Ə.Kərimli "Azadlıq.info"dan boylanıb dedi ki, onlar jurnalist olmayıblar, telekanalda texniki işçi olublar. Gülməlidir, vallah! Sübutlarınıza quzu kəsməkdən başqa yol qalmır.

"Gözünüz aydın" olsun, Əvəz Temirxan da pırt eləyib bu yandan çıxdı. Deməli, AŞPA üzvləri protokol qaydalarına uyğun olaraq, bir az da dəqiq desək, öz planlarını doldurmaq üçün (görüş xatirinə, görüş) bizim müxalifətin "lider"ləri ilə görüşüblər. Ə.Temirxan bu haqda yazır: "Şəxsən mən partiyamız adından AŞPA nümayəndələrinə Azərbaycandakı mövcud siyasi böhrandan çıxılması üçün "yol xəritəsini" təqdim etdim. Bu plan bizim partiya tərəfindən hazırlanıb. Planın əsas məğzi ondan ibarətdir ki, AŞPA üzvləri, Azərbaycan müxalifəti və iqtidarı birgə görüşlər keçirib, hazırda Azərbaycandakı problemlərin həll olunması üçün real addımlar atsın". Birincisi, ay Əvəz, sən "yol xəritəsini" AŞPA-ya niyə təqdim edirsən? Sizin dilinizlə desək, Azərbaycanı "böhran"dan AŞPA-mı çıxaracaq? Məgər bütün dünyanı böhrana salan AŞPA-nın sahibləri deyilmi? Bəlkə AŞPA gəlib sənin ölkəndə anti-böhran tədbirləri həyata keçirəcək? Elə sizin də ən böyük probleminiz budur da, hansı yolla necə yeriməyin lazım olduğunu unutmusunuz. İkincisi, böhrandan çıxmaq üçün real addımları yalnız hökumət atmalıdır. Necə ki, bu istiqamətdə bütün tədbirlər həyata keçirilir. Sən nə edəcəksən? Günün 16 saatını keçirdiyin çayxanadamı böhrandan çıxaracaqsan bizi? Əvəz bəy, sizin hakimiyyətdə olduğunuz dönəmlərdə, AXC-Müsavat iqtidarı zamanı İsgəndər Həmidov həm də xarici işlər naziri kimi "fəaliyyət" göstərirdi. Ona görə də, AŞPA-ya böhrandan çıxış üçün plan verməyinizi başa düşürəm.

# TƏHQİQAT, İBTİDAİ İSTİNTAQ, PROKURORLUQ VƏ MƏHKƏMƏ ORQANLARININ QANUNSUZ HƏRƏKƏTLƏRİ NƏTİCƏSİNDƏ FİZİKİ ŞƏXSLƏRƏ VURULMUŞ ZİYANIN ÖDƏNİLMƏSİ HAQQINDA

***Azərbaycan Respublikasının 29 dekabr 1998-ci il tarixli Qanunu (2008-ci il fevralın 1-dək olan əlavə və dəyişikliklərlə)***

Bu Qanun təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (səhvi və ya sui-istifadəsi) nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin edilməsinə yönəldilmişdir.

Bu Qanunun və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının müddəalarına əsasən, Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində:

barəsində məhkəmənin bəraət hökmü çıxarılan şəxsin cinayət təqibinə məruz qalması;

şəxsin qanunsuz həbs olunması və ya tibbi, yaxud tərbiyə müəssisəsinə məcburi yerləşdirilməsi, habelə, qanuni əsas olmadan müəyyən edilmiş müddətdən artıq həbsdə saxlanılması;

şəxsin barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;

şəxsin barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində həmin şəxsə vurulmuş ziyan ödənilməlidir.

Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş hallarda vurulmuş ziyan təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq, tam həcmdə ödənilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində-fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Bu Qanunda və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında göstərilən qaydalarla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydalar arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi sahəsində qəbul edilən qanun qüvvəli aktlarla dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün bu Qanundan irəli gəlməyən səlahiyyətlər və vəzifələr müəyyən edilə bilməz.

Fiziki şəxslərin hüquqlarının və qanuni mənafelərinin, ictimai və dövlət mənafelərinin pozulması hallarının vaxtında aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericiliyin eyni cür və dürüst icrası dövlət tərəfindən qanunla nəzərdə tutulmuş qaydada təmin edilir.

Vurulmuş ziyanın bu Qanunla müəyyən edilmiş hallarda, miqdarda və qaydada ödənilməsi hüququ:

bəraətverici hökm çıxarıldıqda;

cinayət təqibinə xitam verilməsi haqqında qərar çıxarıldıqda;

inzibati xəta haqqında işə xitam verildikdə yaranır.

Bu Qanunun 1-ci maddəsində göstərilmiş əməliyyat-axtarış tədbirlərinin cinayət işi başlamazdan əvvəl keçirilməsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququ belə tədbirlər keçirildikdən dərhal sonra yaranır.

Vurulmuş ziyanın ödənilməsi hüququna malik olan şəxs vəfat etdikdə, vurulmuş ziyanın ödənilməsi hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada onun vərəsələrinə keçir.

Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş hallarda hər bir şəxsə:

məlum olduğu əmək haqqı, pensiya, müavinət və başqa gəlirlər;

müsadirə edilməsi, dövlət nəfinə keçirilməsi, istintaq orqanları tərəfindən götürülməsi, üzərinə həbs qoyulması ilə vurulmuş əmlak ziyanı;

ödənilmiş məhkəmə xərcləri, habelə, hökmün icrası zamanı ödənilmiş və ya tutulmuş cərimə;

hüquqi yardımın göstərilməsi ilə əlaqədar ödənilmiş məbləğlər;

vurulmuş fiziki və mənəvi ziyan ödənilməlidir.

Həbsdə saxlanılmasına, məhkəmə məsrəflərinə, həbsdə saxlanılarkən gördüyü məcburi işlərə görə haqqın verilməsinə sərf olunmuş məbləğlər təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində şəxsə vurulmuş ziyanın ödənilməsi üçün nəzərdə tutulmuş məbləğdən çıxıla bilməz.

Bu Qanunun 5-ci maddəsində nəzərdə tutulmuş hallarda vurulmuş ziyanın ödənilməsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Bu Qanunun 5-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş ödənilməli olan məbləğlərin miqdarı şəxsin işdən (vəzifədən) kənarlaşdırıldığı, təyin olunmuş cəzanı çəkdiyi dövrdə əldə edilməmiş gəliri nəzərə almaqla müəyyən edilir.

Bu Qanunun 5-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş əmlak natura formasında, bu mümkün olmadıqda isə, onun dəyəri dövlət və ya onu əvəzsiz olaraq əldə etmiş müəssisə, idarə və təşkilatların hesabına ödənilir.

Evlərin və digər tikililərin dəyəri, yalnız bu əmlakın natura şəklində qalmadığı, şəxsin dəyərcə bərabər olan yaşayış sahəsinin və ya digər tikililərin əvəzsiz olaraq onun mülkiyyətinə verilməsindən imtina etdiyi hallarda və ya həmin şəxsin yaşayış evlərinin və digər tikililərin dəyərinin ödənilməsinə razılığı olduqda ödənilir. Yaşayış sahəsinin və digər tikililərin dəyəri mövcud bazar qiymətlərinə əsasən müəyyən edilir.

Əmlakın dəyəri onun ödənilməsi haqqında qərarın qəbul edildiyi vaxtda mövcud olan qiymət əsasında ödənilir. Əmlakın zədələnməsi və ya köhnəlməsi hallarında vurulmuş ziyan tam həcmdə ödənilməlidir.

Ödənilməli olan əmlakı əvəzsiz olaraq əldə etmiş müəssisənin, idarənin və təşkilatın ləğv edildiyi və ya vurulmuş ziyanın ödənilməsi üçün onların vəsaiti çatışmadığı hallarda, əmlakın dəyəri (əmlakın dəyərinin çatışmayan hissəsi) dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Qanunsuz məhkum edilməsi nəticəsində yaşayış sahəsindən istifadə etmə hüququndan məhrum edilmiş şəxsə müvafiq icra hakimiyyəti orqanları tərəfindən həmin yaşayış sahəsi bir ay müddətində, bu yaşayış sahəsi natura şəklində qalmadığı hallarda isə, bununla əlaqədar edilmiş müraciətdən sonra altı ay müddətində həmin yaşayış məntəqəsində ailə tərkibi və yaşayış sahəsinə dair qüvvədə olan normalar nəzərə alınmaqla növbədənkənar eyni dəyərli abadlaşdırılmış yaşayış sahəsi verilməlidir.

Ödənilməli olan əmlakı əldə etmiş şəxs, bu əmlakın vurulmuş ziyanın ödənilməsi qaydasında əvvəlki sahibinə qaytarılması ilə əlaqədar əvəzində dövlətdən abadlaşdırılmış, dəyərcə və bütün digər əlamətlərlə bərabər olan əmlakı və ya onun dəyərini tələb etmək hüququna malikdir. Belə tələb, irəli sürüldükdən sonra bir ay müddətindən gec olmayaraq, dövlət tərəfindən təmin edilir.

Bununla əlaqədar bütün mübahisələr məhkəmə qaydasında həll olunur.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində şəxsə vurulmuş fiziki və mənəvi ziyan ödənilməlidir.

Şəxsin barəsində mənfi fikrin formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərin pisləşməsinə gətirib çıxaran və digər mənəvi xarakterli mənfi nəticələr mənəvi ziyan hesab edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsə vurulmuş fiziki və mənəvi ziyan mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödənilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində zərər çəkmiş şəxsin (bu şəxs öldüyü, yaxud fəaliyyət qabiliyyətini itirdiyi hallarda isə - onun hər hansı qohumunun) tələbi ilə məhkəmə və ya istintaq orqanı iki həftə müddətində bu barədə həmin şəxsin əvvəlki və ya hazırkı iş yerinə, təhsil aldığı yerə yaşayış yerinə məlumat verməli, habelə, şübhəli və ya təqsirləndirilən şəxsi ləkələyən məlumatlar dərc edən kütləvi informasiya vasitəsi vətəndaşın təqsirsizliyini şübhə altına almadan bir ay müddətində iş üzrə yekun qərarı haqqında məlumat verməlidir. Göstərilən halda kütləvi informasiya vasitəsi tərəfindən icrası məcburi olan müvafiq tələbi, həmçinin, ərazi və ya ixtisaslaşdırılmış prokuror verməyə haqlıdır.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları onların səhvi və ya sui-istifadəsi nəticəsində həbsdə saxlanılmış, yaxud təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxsdən yazılı surətdə üzr istəməlidir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 18 yanvar


## Televizora çox baxmaq nəyə görə təhlükəlidir?

Televizora çox baxmaq insanda fəaliyyətsizlik, passivlik yaradır ki, bu da piylənmə və ürək-damar xəstəlikləri ilə bağlıdır. Televizorun insan sağlamlığına zərərli təsirini göstərmək üçün getdikcə daha çox tədqiqat aparılır. Alimlər televizora uzun müddət baxmağın çox zərərli olmasının bir neçə səbəbini tapıblar.



AZƏRTAC xəbər verir ki, tədqiqatın nəticələri "Health & Medicine" jurnalında dərc edilib. Bu yaxınlarda Harvard İctimai Səhiyyə Məktəbində aparılmış tədqiqat nəticəsində müəyyən olunub ki, televizora çox baxmaq piylənməni və 2-ci tip şəkərli diabetin inkişaf riskini xeyli artıra bilər. Rod-Aylend ştatında universitetdə aparılmış tədqiqat da televizora uzun müddət baxmağın zərərini sübut edib. Televizora baxmaq insanın düşünməsinə də mane ola bilər. Televiziya kanalında müxtəlif məsələlər barədə müntəzəm verilən informasiya, fikir və təhlil insanı tənqidi təfəkkürdən imtina etməyə yönəldir. Bu yolla insanlar dezinformasiya edilə bilər və nəticədə onları asanlıqla manipulyasiya etmək olar.

## Uşaqlar valideynlərin təqsiri üzündən kökəlirlər?

Avstraliyanın Klinik Mərkəzində çalışan tədqiqatçıların fikrincə, uşaqlar valideynlərin təqsiri üzündən kökəlirlər. Həkimlər kompleks müşahidələr nəticəsində maraqlı qanunauyğunluq aşkar ediblər. "Healthvesti.com" saytı xəbər verir ki, müşahidələrin nəticələri "Psychological Science" jurnalında dərc olunub.



Tədqiqatçılar müşahidə ediblər ki, valideynlərin tosqun hesab etdiyi uşaqlar öz çəkilərinə tənqidi yanaşırlar. Gələcəkdə bu oğlan və qızlarda piylənmənin yüksək ehtimalı var. Eksperimentə Avstraliyadan 2823 ailə cəlb edilib. Həkimlər bildiriblər ki, ana və atalar öz sözlərində daha nəzakətli və təmkinli olmalıdırlar.

## Xosep Qvardiolaya 285 milyonluq dəstək



"Mançester Siti" rəhbərliyi son vaxtlar tənqid hədəfinə çevrilən Xosep Qvardiola ilə yolları ayırmaq fikrində deyil. Apasport.az saytı Britaniya mətbuatına istinadən xəbər verir ki, "şəhərlilər"in sahibi Şeyx Mənsur ispan çalışdırıcıya dəstək olub və yayda heyətin gücləndirilməsinə qərar verib. Belə ki, Qvardiolanın istədiyi oyunçuların komandaya cəlb olunması üçün 285 milyon avro ayrılacaq. 46 yaşlı məşqçinin indidən transfer siyahısını tərtib etdiyi bildirilir.

Siyahıdakı 4 futbolçunun adı artıq bəllidi. Bunlar "Arsenal"ın çilili oyunçusu Aleksis Sançes, Dortmund "Borussiya"sının qabonlu hücumçusu Pyer-Emerik Obameyanq, "Atletiko"nun yarımmüdafiəçisi Koke və "Sauthempton"un hollandiyalı müdafiəçisi Vircil van Deykdi. Qeyd edək ki, "Mançester Siti" İngiltərə Premyer Liqasında 21 turdan sonra 42 xal toplayıb və turnir cədvəlində 5-ci pillədə qərarlaşıb.

## "Poqba faydasızdı, onun üçün 20 milyon da çoxdu"



"Mançester Yunayted"in fransalı yarımmüdafiəçisi Pol Poqba tənqid hədəfinə çevrilib. Apasport.az saytı xəbər verir ki, o, irlandiyalı sabiq futbolçu İmon Danfi tərəfindən tənqid edilib. Danfi Britaniya mətbuatına açıqlamasında "Liverpul"la çempionat oyununda (1:1) rəqibə penalti "qazandıran" və görüşü aşağı səviyyədə keçirən Poqba barədə danışıb. O, 24 yaşlı futbolçu barədə mənfi fikir səsləndirməklə yanaşı, onun transferinə fantastik məbləğdə pul xərcləyən "Mançester Yunayted" rəhbərliyini qınayıb: "Poqbanın dəyəri heç vaxt 100 milyon funt-sterlinq olmayıb. Hətta 20 milyon da onun üçün çoxdu. Van Qal və Mourinyonun vaxtında xərclənən pulları nəzərə alsaq, "Mançester Yunayted" çox yaxşı komanda olmalıdı. Poqba uşaq kimi oynayır və ona görə ödənilən pullara layiq deyil. Karyerasının sonuna qədər də həmin məbləği haqq etməyəcək. O, faydasızdı". Qeyd edək ki, "Mançester Yunayted"də ümumilikdə 28 oyunda iştirak edən Poqba 6 qola imza atıb.

## "Mançester Siti"dən Messi üçün 100 milyon funt-sterlinq




"Mançester Siti" "Barselona"nın futbolçusu Lionel Messini transfer etmək istəyir. Qol.az-ın "The Sun"a istinadən yaydığı xəbərə görə, bununla bağlı İngiltərə klubu Kataloniya təmsilçisi ilə ötən aydan danışıqlara başlayıb. "Mançester Siti"nin bu transfer üçün "Barsa"ya 100 milyon funt sterliq ödəməyə hazır olduğu bildirilib. L.Messi "Mançester Siti"yə keçməyə razı olacağı təqdirdə, həftəsinə 800 min funt-sterlinq qazanacaq. Qeyd edək ki, L.Messi "Barselona" ilə 2018-ci ildə başa çatacaq müqavilənin müddətini hələ yeniləməyib.

## Taekvando üzrə respublika çempionatında 365 idmançı mübarizə aparır



Azərbaycan Taekvando Federasiyasının (ATF), Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Sərhədçi" Olimpiya İdman Mərkəzində gənclər arasında respublika birinciliyi start götürüb. AZƏRTAC xəbər verir ki, 2000-2002-ci il təvəllüdlü taekvandoçular arasında keçirilən yarışda 10 çəki dərəcəsində 300 oğlan və 65 qız mübarizə aparır. Yarışda Bakıda və bölgələrdə fəaliyyət göstərən komandalar təmsil olunurlar. Turnirin birinci günündə oğlanların yarışında 45, 55, 78, qızların mübarizəsində isə 42 kiloqram çəki dərəcələrində yarışlar keçirilir.

## Başsağlığı

Rahibə Kərimli və Zəhra Rəhimova Məşədi Kərbəlayi İncibəyim Əziz qızı Yaqubovaya qardaşı

**ƏYYAR YAQUBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

* * *

"SƏS" qəzetinin Baş redaktoru Bəhruz Quliyev kollektiv adından YAP Bərdə rayon təşkilatının sədri Fəqət Nəcəb qızı Şadlinskayaya qardaşı

**Yəqin Nəcəb oğlu Abdullayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

* * *

Araz Xudadanov YAP Bərdə rayon təşkilatının sədri Fəqət Nəcəb qızı Şadlinskayaya qardaşı

**Yəqin Nəcəb oğlu Abdullayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

* * *

"SƏS" qəzetinin Baş redaktoru Bəhruz Quliyev kollektiv adından Səyyad Arana qardaşı

**Fərhad Salahlının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**